AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
Akademik Ə. QULİYEV adına AŞQARLAR KİMYASI İNSTİTUTU

AKADEMİK ƏLİ MUSA OĞLU QULİYEVİN 110 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ "MÜXTƏLİF TƏYİNATLI ÜZVİ MADDƏLƏR VƏ KOMPOZİSİON MATERİALLAR" MÖVZUSUNDA RESPUBLİKA ELMİ KONFRANSI

MƏRUZƏLƏRİN TEZİSLƏRİ

II H İS S Ə

Bakı – 2022

III BÖLMƏ

NEFT VƏ QAZ HASİLATI VƏ EMALINDA İSTİFADƏ OLUNAN REAGENTLƏR

РАЗРАБОТКА НОВЫХ НАНОКОМПОЗИЦИЙ ДЛЯ ВЫТЕСНЕНИЯ ОСТАТОЧНЫХ И ТРУДНОИЗВЛЕКАЕМЫХ ЗАПАСОВ НЕФТИ

В.М.Фарзалиев, П.Ш. Мамедова, Э.Р.Бабаев, И.М.Эйвазова
Институт химии присадок им.акад.А.М.Кулиева НАН Азербайджана
e-mail: pervin_mammadova@mail.ru

Во многих промышленных странах мира, в том числе в Азербайджане, в общем балансе разрабатываемых месторождений преобладают месторождения, вступившие в позднюю стадию разработки и, как следствие, при этом наблюдается значительное ухудшение их структуры, увеличение доли трудноизвлекаемых запасов нефти, в том числе тяжелых и высоковязких, и обводнение пластов. В этой связи особую актуальность приобретает выбор наиболее эффективной технологической схемы воздействия на пласт, направленный на максимальное снижение остаточных запасов нефти.

Важную роль в повышении эффективности развития нефтегазохимического комплекса играют инновационные нанотехнологии, действующие в диапазоне 1-100 нм. Особый интерес представляет применение технологий для увеличения нефтедобычи. Примерами наноматериала являются углеродные нанотрубки, графены, металлические и оксидные наночастицы. Важным преимуществом использования наносистем является их высокая эффективность при малом содержании вводимого нанокомпонента.

Углеродные нанотрубки представляют собой аллотропную модификацию углерода полой цилиндрической структуры. Многостенные нанотрубки отличаются от одностенных богатым разнообразием форм и конфигураций, проявляющихся как в продольном, так поперечном направлениях.

Известно, что в процессе нефтедобычи одним из важных факторов является предохранение нефтяного оборудования от поражения различными видами микроорганизмов, в том числе сульфатвосстанавливающими бактериями. В силу этого используемые буровые растворы должны обладать эффективными антимикробными свойствами. Принимая во внимание наличие определенных антимикробных свойств нанотрубок, они были использованы в составе разработанных композиций.

Целью данного исследования была разработка новых многофункциональных композиций на основе модифицированного природного полимера (натриевой соли карбоксиметилцеллюлозы - Na-КМЦ), ПАВ (Az-5, сульфонол) и многостенных нанотрубок в качестве реагента для повышения коэффициента извлечения нефти (КИН).

Объектом настоящих исследований была выбрана нефть месторождения Балаханы Апшеронского полуострова.

На установленной в лаборатории модели пласта (керна) была определена нефтевытесняющая способность исследуемых реагентов и их композиций.

Результаты эксперимента свидетельствуют о том что, использование нанотрубок позитивно сказывается на нефтевытесняющих качествах предложенных композиций, а сочетание Na-КМЦ, поверхностно-активного веществ и многостенных нанотрубок в составе разработанных новых композиций может обеспечить повышение КИН до 76%.

Данная работа выполнена при финансовой поддержке Фонда науки ГНКАР (14_LR - AMEA)

NEFT MƏHSULLARININ BUXARLANMASININ QARŞISINI ALAN YENİ REAGENT

E.U.İsakov, E.İ.Həsənova, L.K.Kazımzadə, Q.R.Allahverdiyeva
AMEA akad. Ə.Quliyev adına Aşqarlar Kimyası İnstitutu
E-mail: amea.elnara@mail.ru

Neft və neft məhsullarının buxarlanma zamanı itkisinin qarşısını almağın bir sıra üsulları mövcuddur. Ancaq bu üsullar icərisində ən sadə və etibarlısı kimyəvi üsul hesab edilir, yəni bəzi kimyəvi maddələrin çox kiçik qatılıqlarından istifadə etməklə buxarlanmanın qarşısını almaq mümkündür. Buxarlanma yalnız iqtisadi cəhətdən deyil, ekoloji baxımdan da arzuolunmazdır Aparılan tədqiqatın mahiyyəti ondan ibarətdir ki, istifadə edilən maddə neft məhsulunda həll olmur, lakin onların səthində elastik pərdə əmələ gətirir və nəticədə buxarlanmanın qarşısı alınır. Bu məqsədlə istifadə ediləın reagentlər, əsasən kompozision tərkiblidir və onların tərkibində mütləq polimer olmalıdır.

Texnoloji əməliyyatlar zamanı neft məhsullarının buxarlanmasının qarşısını alan reaqentlərin tətbiqi məlumdur. Bu reagentlər: sintetik lateks BSNK (butadien, stirol, akril turşusu və metakril turıusunun sulu emulsiyada birgə polimerləşmə məhsulu), polibutilmetakrilatlar və s. neft məhsullarını buxarlanmadan indiki tələblərə uyğun olaraq kifayət qədər effektiv surətdə müdafiə etmir. Antioksidləşdirici xassəyə malik reagent olan butilmetakrilatın o-allilfenolla birgə polimerləri effektiv təsirə malik olsa da, depressor xassəsi daşımır.

Təqdim olunan iş neft məhsullarının saxlanması, nəqli və bir rezervuardan digərinə vurulması zamanı buxarlanmanın qarşısını alan və eyni zamanda çeşidini genişləndirən yeni reagentin alınmasına aiddir. Bu məqsədlə özlülük aşqarı kimi sintez etdiyimiz, neft yağlarında həll olmayan kapron turşusunun allil efirinin (allilkapronat) butilmetakrilat və stirolla üçlü birgə polimerini buxarlanmanın qarşısını alan reagent kimi tədqiq etmişik. Sintez edilmiş üçlü birgə polimer tərkibində özlülük aşqarlarının malik olduğu ayrı-ayrı faydalı xassələri bir aşqarda birləşdirir. Belə ki, polimer zəncirində stirol fraqmentinin olması stabilliyi, butilmetakrilat fraqmentinin mövcudluğu isə depressiya xassələrini təmin edir. Məhz buna görə də yeni reagent bu xassələri özündə cəmləşdirmiş olur.

Allilkapronatın butilmetakrilat və stirolla üçlü birgə polimeri 8000-10000 molekul kütləsinə malik yüksək özlülüklü, aromatik karbohidrogenlərdə, sintetik yağlarda yaxşı həll olan, neft məhsullarında isə həll olmayan açıq sarı rəngli maddədir [1]:.

Allilkapronatın butilmetakrilat və stirolla üçlü birgə polimeri benzol-toluol-ksilol (BTK) fraksiyasında 2%-li məhlulu neft məhsullarında tətbiq edilmişdir. Neft məhsulu kimi heptandan istifadə edilir. Birgə polimer nümunələri 1 ml miqdarında heptana (100 ml) əlavə olunur. Paralel olaraq “boş” təcrübə (reagentsiz heptan) qoyulur. Hər iki nümunəni 0,01 q dəqiqliklə çəkilir. Müəyyən müddət keçdikdən sonra neft məhsulunun kütlə itkisi (%)-lə məlum formul üzrə təyin olunur.

Təcrübələrin nəticələri aşağıdakı düsturla hesablanmısdır [2]:

$$S = (1 - \frac{P}{P_o}) \cdot 100\%$$

Burada, S – buxarlanmanın azalması, P və P_o – uyğun olaraq reagentlə və reagentsiz heptanın cəkisidir.

Allilkapronatın butilmetakrilat və stirolla üçlü birgə polimerinin və məlum reagentlərin müqayisəli nəticələri göstərir ki, bu birləşmə depressiya effektivliyinə və termiki davamlılığa malik olub, neft məhsullarının buxarlanmasının qarşısını əhəmiyyətli dərəcədə (70-80%) aşağı salır.

Ədəbiyyat

1. SDU, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş"Ekologiya və Həyat fəaliyyətinin mühafizəsi: nailiyyətlər və problemlər" mövzusunda IX ənənəvi Respublika Elmi Konfransının materialları, 12-13 mart 2020, Sumqayıt. Səh. 83-87.
2. Гумбатов Г.Г., Дашдиев Р.А. Защита окружающей среды при добыче хранение и транспорте нефти с применением коллоидных композиции. Баку, «Элм», 1998, с. 206

PERSPEKTİVLİ ABŞERON VƏ QƏRBİ ABŞERON YATAQLARI NEFTLƏRİNİN TURŞ XASSƏLİ OKSİGENLİ BİRLƏŞMƏLƏRİ

G.S.Muxtarova , B.Ə.Hüseynova , B.M.Əliyev , E.A.Bexmetova , N.F.Qafarova
AMEA akad. Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu
E-mail: lab.21@mail.ru

Neft turşuları xalq təsərrüfatının müxtəlif sahələrində işlədilən texniki əhəmiyyətli maddələrin (boya maddəsi, emulqator, demulqator, aşqarlar, plastifikator, metal ekstragenti, herbisid, antioksidant, kənd təsərrüfatında məhsuldarlığı artırmaq üçün stimulyator və s.) sintezində qiymətli ilkin xammal kimi geniş istifadə olunur. Bununla yanaşı neft turşuları sənayedə bəzi xoşagəlməz təsirlərə də malikdirlər. Onlar neftin emalı zamanı avadanlığı korroziyaya uğratmaqla tez-tez baş verən qəzalara səbəb olurlar. Neftin turş oksigenli birləşmələri içərisində miqdarına görə fenollar, turşulardan sonra ikinci yerdə durur. Onların çoxusu xam neftdə bağlı formada əsas xassəli azotlu birləşmələrlə əlaqəli şəkildə olub, neftin distilləsi zamanı temperaturun təsirindən turşu-əsasi əlaqələrinin qırılması ilə ayrılaraq sərbəst fenollar halına keçir. Zavod çirkab sularında neft turşularının qatılığı 2,5-5,0 mq/l-dən artıq olduqda və belə sular su hövzələrinə atıldıqda balıqlar zəhərlənə bilir.

Odur ki, turş xarakterli birləşmələrin neft və neft məhsullarında miqdarının və quruluş tərkibinin öyrənilməsi aktual məsələlərdən biri olub həmişə tədqiqatçıların diqqət mərkəzindədir.

Xəzərin Azərbaycan sektorunda yerləşən perspektivli Abşeron və Qərbi Abşeron yataqları məhsuldarlıqlarına görə Azəri-Çıraq-Günəşli (AÇG) və Şah-dəniz yataqlarına oxşardırlar. Xassələrinə görə hər iki neft ağır, qatranlı, azparafinli neftlərdir.

Abşeron neft-qaz yatağı AÇG-dən cənub-qərbdə yerləşir, sahəsi 260 km^2-dir. Neftlik-qazlıq təbaşir yaşlı çöküntülərlə əlaqədardır. Suyun dərinliyi 250-650 m arasında dəyişir. Məhsuldar laylar 6500-6700 m dərinliklərdə yatır. SOCAR-ın qiymətləndirmələrinə görə, ilkin qaz ehtiyatları 1 trilyon m^3, kondensat 945 milyon barel və ya 450 milyon ton təşkil edir.

Qərbi Abşeron yatağı 1985-ci ildə aşkar edilib və "Neft Daşları" NQÇİ-nin infrastrukturuna birləşdirilib.

2018-ci ildə dənizin 13,5 m dərinliyində yerləşən platformada 18 quyu qazılıb və illik 95,4 mln ton neft hasilatla istismara daxil edilib.

Işin məqsədi Abşeron və Qərbi Abşeron neftlərinin turş xassəli oksigenli birləşmələrinin (TOB) funksional və qrup-quruluş tərkibinin öyrənilməsidir. Bunun üçün xam neft nümunələrindən TOB ekstraksiya üsulu ilə sərbəst və əlaqəli formada (mürəkkəb efir şəklində) olan birləşmələrə differensiasiya edilməklə tədqiq edilmişdir.

Abşeron yatağı: dərinlik – 371,5-751 m; neftin turşu ədədi – 1,90 mqKOH/q; turş oksigenli birləşmələri – 1,4295, sərbəst formada: turşular – 0,094; fenollar – 0,053, mürəkkəb efirlərdən alınmış: turşular – 0,084; fenollar – 1,199% kütlə.

Qərbi Abşeron yatağı: dərinlik – 666-808 m; neftin turşu ədədi – 2,45 mqKOH/q; turş oksigenli birləşmələri – 0,588, sərbəst formada: turşular – 0,014; fenollar – 0,037, mürəkkəb efirlərdən alınmış: turşular – 0,097; fenollar – 0,440 % kütlə təşkil edir.

Neftlərdən ayrılmış sərbəst və bağlı turşuların, fenolların qrup-quruluş tərkibini öyrənmək məqsədilə PMR-spektrləri "Bruker" firmasının istehsalı olan 300,18 MHs tezlikli Furye spektrometrində çəkilmişdir. Müxtəlif struktur qruplara məxsus protonların payı rezonans udma zolaqlarının inteqrallarına əsasən hesablanmışdır (cədvəl).

cədvəl

Abşeron və Qərbi Abşeron neftlərindən və onlardan ayrılmış turş oksigenli birləşmələrin qrup-struktur parametrləri

Nümunənin adı	H-atomlarının müxtəlif struktur qrupları üzrə nisbi paylanması, %						Aroma-tiklik dərəcəsi	İzopa-rafin indeksi
	H_A	H_α	H_{naften}	$H_{parafin}$	H_γ	aromatik-OH, turşu-OH qrupundakı H	f_a	I
Abşeron neft-qaz yatağı								
Sərbəst turşular	3,0	7,6	21,8	34,0	27,9	5,7	0,16	0,5
Bağlı turşular	5,3	15,8	23,7	27,6	22,7	4,9	0,24	0,55
Sərbəst fenollar	3,2	10,5	22,5	35,3	24,8	3,7	0,27	0,47
Bağlı fenollar	2,3	4,6	19,3	39,4	27,0	7,4	0,12	0,46
Qərbi Abşeron neft-qaz yatağı								
Bağlı fenollar	6,8	17,3	18,0	34,6	21,8	1,5	0,27	0,42
Bağlı turşular	4,6	7,6	16,7	42,6	25,8	2,7	0,21	0,40

Qeyd: H_A – aromatik həlqələrdə hidrogen atomlarının payı; H_α – aromatik həlqələrin α-vəziyyətindəki CH, CH_2, CH_3 qruplarındakı hidrogen atomlarının payı; H_{naften}, $H_{parafin}$ – naften və parafin strukturlarındakı hidrogen atomlarının payı; H_γ – terminal metil qrupları

Aparılan tədqiqatlardan aydın olur ki, Abşeron neftindən ayrılmış TOB sərbəst formada 6,6% turşu və 3,7% fenollardan, mürəkkəb efir şəklində olan – bağlı 5,9% turşu və 83,8% fenollardan ibarətdir. Sərbəst turşu və bağlı fenollar ən çox parafin quruluşları ilə ($H_{parafin}$ = 34,0 və 39,4%) xarakterizə olunursa, sərbəst fenollar və bağlı turşular ən çox kondensləşmiş (f_a = 0,27 və 0,24) naften-aromatik halqalarından təşkil olunub.

Qərbi Abşeron neftinin TOB birləşmələri sərbəst formada 2,4% turşu, 6,3% fenollardan bağlı mürəkkəb efirlərdən ayrılmış 16,5% turşulardan – 74,8% – fenollardan, ibarətdir və bunlar kondensləşmiş aromatik və naften əsaslı törəmələrdir, turşular isə molekulunda daha çox $–CH_3$ əvəzedici radikallar saxlayan parafin sırası karbohidrogen (H_γ = 25,8%) törəmələridir.

Bu neftlərin fiziki-kimyəvi xassələrinin və turşu ədədlərinin yaxın olmasına baxmayaraq Qərbi Abşeron neftindən ekstraksiya olunmuş neft turşuları miqdarına görə nisbətən azdır. Buna səbəb kimi həmin neftdə isti sabunlaşma üsulu ilə ayrılmayan, neytral xassəli, yüksək molekullu heteroatomlu, qatran tipli asfaltogen turşularının nisbətən çox olması ilə izah oluna bilər.

YÜNGÜL SURAXANI NEFTİNİN METAN-NAFTEN FRAKSİYASI VƏ ONUN BİTSİKLİK AROMATİK KARBOHİDROGENLƏRİNİN XROMATO-KÜTLƏ SPEKTROSKOPİYA METODU İLƏ TƏDQİQİ

A.F.Əliyeva[1], R.Ə.Cəfərova[1], Ü.C.Yolçuyeva[1], F.N.Əlimərdənova[2], N.Ə.Rzayeva[1], M.A.Şaşkayeva[1], G.N.Həmzəyeva[1]

[1]AMEA akad. Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu

[2]Xəzər Universiteti

E-mail: ulviyya.yolchuyeva@khazar.org

Azərbaycan neftlərindən müasir texnologiyaların əsasında müxtəlif təyinatlı sürtkü və motor yağları, müxtəlif markalı reaktiv yanacaqlar, parafinsizləşdirilmiş dizel və s. alınır. AMEA-nın Y.H.Məmmədəliyev adına Neft-Kimya prosesləri İnstitutunda neft tullantılarından alınmış neft lüminoforlarının alternativ işıq mənbələri (günəş enerjisi akkumulyatorları), üzvi birləşmələrin parçalanmasında fotosensibilizatorlar, fotoxrom materiallar, lüminessent boyalar, polimerlər üçün işıq stabilizatorları olduğu və kapilyar-lüminessent defektoskopiya sahəsində mikrodefektlərin təyinində istifadə edilməsinin mümkün olduğu müəyyən edilmişdir [1-3].

Lakin naften karbohidrogenləri ilə zəngin olan unikal neftlərdə (naftalan, suraxanı və s.) potensial farmakoloji aktivliyə malik olan maddələrin aşkar edilməsi yeni dərman maddələrinin kəşfinə kömək edər və onların istehsalının biosintetik potensialını xeyli azaltmış olar. Bu məqsədlə bioloji aktiv karbohidrogenlərin aşkar edilməsi üçün Yüngül Suraxanı neftinin metan-naften komponenti müasir proqram təminatlı “Thermo Electron GMS Trace DSO “ markalı xromato-kütlə spektrometrinin vasitəsilə tədqiq edilmışdır (bu cihazda GC 7890 A qaz xromatoqrafından istifadə edilir).

Yüngül Suraxanı nefti (YSN) açıq rəngli olub, qaynama sonu temperaturu 260^{0}C; sıxlığı -802,3 kq/m^3 (20^{0}C), alışma temperaturu +40^{0}C, kinematik özlülüyü 1,22 mm^2/san (40^{0}C), turşu ədədi – 28,02 mq KOH/q, donma temperaturu – 20^{0}C, kükürd – 0,0301%küt., qətran – 0,95 %küt.-dir.

YSN-nin metan –naften komponentinin xromato-kütlə spektrometri vaitəsilə tədqiqi onun tərkibində 16,532% benzol və naftalinlərin və 2-antrasenaminin (3,09%) olduğunu göstərir. Onun 6,991%-i heksan və tsikloheksanlardan, 5,2351 %-i pentan, tsiklopentan, pentadekan birləşmələrindən və 2,164%-i propanaldan; 2,296%-i heptan birləşmələrindən (bura tsiklik , bitsiklik, spirobirləşmələr, turşular, xlorlu birləşmələr və s. daxildir ki, bunların əksəriyyətini bitsiklik birləşmələr təşkil edir); 23,202% dekan (undekan, tsiklodekan, spirodekan, do-, tri-, tetradekan və pentadekan, turşu və s.- doymuş və doymamış birləşmələr); 2,919 % butil (bunların əksəriyyəti turşulardır); 2,922%-i oktan (bura asetil, bromasetil, flüor, triflüorasetil, sulfat əsaslı turşular, spirtlər, dienlər və s.); 0,602% nonan əsaslı birləşmələrdən və s. ibarətdir. Bu komponentdə aminli birləşmələr - piridin, pirazol, mentan, indan və s. əsas yerlərdən birini tutur. Burada, həmçinin, dekalin, aseton (2,164%), toluol (16,275%), o- və p- xinonlar (0,1%) və s. aşkar edilmişdir. Bu komponentdə dekalinin sis- izomerləri cəmi 0,246 %-dir. Bitsiklik birləşmələrin YSN-nin, əsasən, naften-parafin komponentində toplandığı aşkar edilmişdir.

YSN-də aşkar edilmiş, antibakterial xassəyə malik olan dekalin birləşməsi və onun sis- və trans adduktları alitsiklik karbohidrogenlər olub, kəskin iyili, ağ rəngli mayelərdir. Bunlar biosintez prosesində molekuldaxili Dils-Alder reaksiyasının sayəsində əmələ gəlir [4]. Kimyəvi olaraq bu reaksiya, adətən, endokeçid vasitəsilə baş verir və sis-izomer yaranır, çox az hallarda isə ekzokeçid halları trans-dekalinin yaranmasına səbəb olur. İkinci metabolizmdə stereokimyəvi yol adətən kim- yəvi həlledicilərlə deyil, fermentlərlə kontrol olunur. Bildiyimiz kimi, eyni bioloji mənbədən eks- traksiya olunmuş həm sis, həm də trans dekalin konfiqurasiyaları haqqında ilkin məlumatlar [5] işində verilmişdir, belə ki, Papua-Yeni Qvineyada, ilk dəfə olaraq, eyni bir göbələkdə həm sis, həm də trans dekalin eyni zamanda aşkar edilmişdir. Bu neftdə 2-metil –trans-dekalinin sinonimi dekahidro-2-metilnaftalin də aşkar edilmişdir [6]. Qeydə alınmış dekahidronaftalin və onun sis- və trans adduktları uyğun gələn dekalin birləşmələrinin sinonimləridir.

Beləliklə, YSN-nin antibakterial xassəli bitsiklik birləşmələri əczaçılıq sənayesində istifadə edilmək üçün karbohidrogen mənbəyi ola bilər.

Ədəbiyyat siyahası

1. Mamedov A.P., Rustamov M.I., Dzhafarova R.A., Salmanova Ch. Photochemical processes and accumulation of solar energy in oil luminophors // Turkish journal of Chemistry, 2000, v.24, №1, p.35-42.

2. Jafarova R.A. Aliphatic alcohols and paraffin hydrocarbons decay // Processes of petrochemistry and oil refining, 2004, v.16, №1, p.10-16.

3. Məmmədov Ə.P., Cəfərova R.Ə. Salmanova Ç.Q. və s. Katalitik krekinq prosesindən alınan şlamdan lüminofor və boya maddələrinin alınması / "Bakı şəhəri və şəhərətrafı ərazilərin ekoloji problemləri" mövzusunda elmi-praktik konfrans. Məruzələrin tezisləri, 26-27 noyabr 1992, s.120.

4. Зауэр У. Механизм реакции Дильса –Ал-дера. Успехи химии, 1969, с.624-661.

5. Ракель С. Хадулко, Майкл Кох, Томас Б. Кfакуле, Эрик В.Шмидт и т.д Выделение пирролоцинов А-С: цис- и транс-декалинтетралиновых кислот антибиотиков из эндофит- ного грибкового пути // J.Nat. Произв. 2014, т.77, №11, с.2537-2544.

6. Makovetskii P.S., Serdyuk D.F., Voronina T.B. Naphtene hydrocarbons of the benzine and kerosene –gasoil fraction of petroleum // Chemistry and Technology of Fuels and Oils 1966, №2, p.468-472

ZOL-GEL METODU İLƏ TiO_2 NANOHİSSƏCİKLƏRİNİN SİNTEZİ

H.C.İbrahimov, R.Ə.Babalı, N.R.Veysəlova, Ü.İ.Ağayev

AMEA-nın akad.Y.H. Məmmədəliyev adına Neft-Kimya Prosessləri İnstitutu

e-mail: rahimbabali@hotmail.com

Son zamanlar tədqiqat obyekti kimi nanokristal oksidlərinə maraq durmadan artmaqdadır, unikal mexaniki, optik, və digər xassələrə malik olan bu birləşmələr sənayenin müxtəlif sahələrində uğurla tətbiq olunur. Kimyəvi stabil, qeyri-toksik, nisbətən uzuz material kimi ultradispers titan dioksid qaz sensorların, dielektrik keramiklərin, katalizatorların hazırlanmasında, fiber-optik rabitə texnologiyasında, mikroelektronikada, yarımkeçirici, atom və kosmik texnologiyada, bir çox oksidləşmə proseslərində və yanacaq elementlərində geniş istifadə olunur [1,2].

Zol-gel texnologiyası [3] nanohissəciklərin və onların əsasında materialların kütləvi istehsalı üçün ən perspektivli üsullardan biridir. Üsulun mühüm xüsusiyyəti prosesdə lazımi şəraitinin seçilməsi ilə əmələ gələn hissəciklərin ölçülərinə çevik şəkildə müdaxilə nəticəsində oksidlərin tekstur və strukturlaşdırıcı xassələrinin tənzimlənməsinin mümkünlüyüdür.

Zol-gel metodu ilə $TiCl_4$-ün suda məhlulu çökdürücü/stabilləşdirici olaraq monoetanolamindən (MEA) istifadə olunmaqla hidrolizə uğradılmış, alınan $Ti(OH)_4$ kristallarından termiki emalı yolu ilə TiO_2 nanohissəcikləri sintez edilmişdir. Sintez şəraitinin alınmış TiO_2 tozlarının çıxımına, faza tərkibinə və morfologiyasına təsirinin müəyyən edilməsi məqsədilə $TiCl_4$-ün stabilizator/çökdürücüyə mol nisbətinin, müddətin, emal temperaturun alınan gelin və nanooksidin çıxımına təsiri tədqiq edilmişdir. Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, stabilləşdirilməci kimi MEA birləşməsindən istifadə edilməsi alınan $Ti(OH)_4$ gelinin yüksək dispersliyini təmin edir, MEA titan tetrahidroksidin səthinə hemosorbsiya edərək, onu stabilləşdirir. MEA/Ti^{4+} mol nisbətinin göstəriciləri sintez edilən gelin çıxımına əsaslı təsir göstərir. MEA-nin istifadəsində çökdürücünün nisbətinin 0,5÷2,0 çərçivəsində artırılması gelin çıxımını 50%-dən 96% -ə qədər yüksəldir.

Alınmış hissəciklərin ölçülərinin işığın dinamik səpilməsi (İDS) üsulu ilə analizi paylanmanın bimodal xarakterli olmasını müəyyənləşdirmişdir. Şəkildən göründüyü kimi, suspenziyada 7-10 nm diametrli hissəciklər üstünlük təşkil edir, həmçinin sistemdə az miqdarda ~70 nm ölçülü hissəciklər də müşahidə olunur.



Şəkil-1. Nano TiO_2 tozlarının suspenziyasının İDS paylanması



Şəkil-2 TiO_2 nanbohissəciklərinin XRD analizi

Rentgen faza difraksiyası metodu ilə aparılan tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, kristallitlərin orta ölçüləri 5.4-7.7 nm həddindədir və bu nəticələr İDS ilə uyğunluq təşkil edir.

Beləliklə, çökdürücü-stabilləşdirici kimi monoetanolamindən istifadə perspektivlidir və alınan sistemlər aqreqativ stabil olması ilə fərqlənir və hissəciklərin bu cür paylanması ədəbiyyatda məlum olan bir çox kolloid sistemlər üçün xarakterikdir.

ƏDƏBİYYAT

1. Haider Adawiyah J., Zainab N. Jameel, Imad HM Al-Hussaini. Review on: titanium dioxide applications // Energy Procedia, 2019, 157, p.17-29.
2. Manmeet Kaur, K.Singh, Review on titanium and titanium based alloys as biomaterials for orthopaedic applications // Materials Science & Engineering C, 2019,102 p.844–862
3. Abel S.J., Leta T.B., Fikadu.S., et.al. Application of titanium dioxide nanoparticles synthesized by sol-gel methods in wastewater treatment. // Journal of Nanomaterials, 2021, p.1-6.

STİROLUN C_{10}-ALKANOL-1-LƏ ALKOOKSİBROMLAŞDIRILMASI, SULFATREDUKSİYAEDİCİ BAKTERİYALARA QARŞI TƏSİRİNİN TƏDQİQİ

V.M.Abbasov, G.M.Talıbov, A.R.Əzizbəyli
AMEA akad.Y.H. Məmmədəliyev adına Neft-Kimya Prosessləri İnstitutu
ezizbeyli83@mail.ru

İqtisadiyyatı və sənayesi güclü inkişaf etmiş bir çox ölkələrdə metalların korroziyası problemi öz aktuallığını hələ də saxlayır. Məsələn, ABŞ-da bioloji örtüyün gəmiçiliyə vurduğu ziyan ildə 10 milyon, yeraltı borularda sulfat reduksiyaedici bakteriyaların (SRB) vurduğu ziyan isə ildə 500-2000 milyon dollara çatır. Xüsusilə neft qaz sənaye sahələrində bu problem metaldan hazırlanan bir çox avadanlıqların dağılaraq istismara yararsız hala düşməsi ciddi iqtisadi itkilərə gətirib çıxarır. Ona görə də bu sahədə problemin həlli üçün bir sıra istiqamətlərdə elmi tədqiqat işləri davam etdirilir. Onlardan biri də inhibitorlarla mübarizə üsuludur. Nəzərə almaq lazımdır ki, xüsusilə SRB-nin müəyyən vaxtdan sonra eyni inhibitorlara adaptasiyası baş verir ki bu da inhibitorların daimi olaraq yenilənməsi zərurətini ortaya qoyur.

Tərkibində hidrogen sulfid və SRB olan dəniz suyu və neftli lay suyu kimi aqressiv mühitdlərdə aromatik doymamış efirlərin yüksək bakterisidlik xassəsi müəyyən edilmişdir [1].

β-Halogenefirlərin effektli alınma üsullarından biri alkenlərin spirt mühitində halogendaşıyıcı reagentlərlə – N-bromsuksinimid və ya kristal yodla birgə uckomponentli reaksiya əsasında alkoksihalogenləşməsidir. Reaksiya -5^{0}C-yə kimi soyudulmaqla qarışdırılaraq 7,9 qr (0,05 mol) desil spirti və 5,2 qr (0,05 mol) stirolun qarışığı üzərinə kiçik porsiyalarla (1 qr) 12 qr (0,05 mol) bromsuksinimid əlavə edilməklə 5 saat ərzində otaq şəraitində aparılmışdır.



Sxem. Stirolun desil spirti və bromsuksinimid iştirakı ilə alkooksihalogenləşməsi

Alınmış β-halogenefirin sulfatreduksiyaedici bakteriyaların (SRB) həyat fəaliyyətinə qarşı təsiri öyrənilmişdir. Təcrübədə SRB-nin "*Desulfovibrio desulfuricans*" növünün 1143 ştammından istifadə edilmişdir.

Cədvəl

Alınan β-halogenefirin qatılıqdan asılı olaraq SRB-yə təsiri

Maddənin adı	Maddənin qatılığı, C-mq/l	Bakteriyaların sayı (hüceyrə sayı/ml)	H_2S Miqdarı, mq/l	Bakterisid effekti, Z-%
β-halogenefir	0.025	10^1	5	98.4
	0.05	-	-	100
АМДОР-ИК-10 (etalon)	0.025	10^7	187	26
	0.05	10^5	142	45
Nəzarət-I SRB-siz mühitdə H_2S-in miqdarı		32 mq/l		

Cədvəlin ardı

Nəzarət-II SRB-li mühitdə H_2S-in miqdarı	255 mq/l
Nəzarət-III Qidalı mühitdə bakteriyaların sayı	10^8 hüceyrə sayı/ml

Beləliklə, sintez edilən birləşmə bütün qatılıqlarda SRB-nin həyat fəaliyyətini tam dayandırmışdır

1. Talybov G. M., Nurieva U. G., Karaev S. F. New Arylsubstituted 1,4-Dioxanes Prepared from Propargyl Ethers of (Bromomethyl)-(phenylalkyl)methanols. Russ. J. Org. Chem. 2003, 39(8),1206-1208.

NEYTRALLAŞDIRILMIŞ POLİAKRİL TURŞUSUNUN HEPTİLMETİLDİETİLOLAMMONİUMBROMİD ƏSASINDA ALINMIŞ POLİMER KOMPLEKSİNIN NEFTSIXIŞDIRMA XASSƏSİNİN TƏDQİQİ

R.A.Rəhimov, Ş.M.Nəsibova, İ.A.Zərbəliyeva, N.V.Salamova, A.M.İsayeva
AMEA-nın akad.Y.H. Məmmədəliyev adına Neft-Kimya Prosessləri İnstitutu
ilhamachem447@mail.ru

Məlumdur ki, köhnəlmiş neft yataqlarında və neftin qeyri-stabil qiymətləri şəraitində neft hasilatının artırılması üsulları hazırki dövrdə mühüm olan problemlərdəndir. Hal-hazırda, təkrar üsullarla əsas etibarilə su vurmadan istifadə edərək neft hasilatının artırılması, dünya üzrə neftçıxarmanın ilkin ehtiyatların orta əmsalının təxminən 35 %-ni təşkil edir.

Eyni zamanda, bəzi istehsalçı şirkətlər yatağın işlənilməsinin əvvəlindən neft hasilatının artırılması üsullarının tətbiq edilməsini zəruri hesab edir. Neft quyularında neftçıxarma əmsalını artırmağa imkan verən texnologiyalar arasında "polimer daşqınlar" digər kimyəvi üsullarla müqayisədə bir sıra əhəmiyyətli üstünlüklərə malikdir. Bunlardan çox aşağı risk və geniş tətbiqetmə diapazonunu qeyd etmək olar. Həmin texnologiya, layda neftçıxarma əmsalını artırmaq məqsədi ilə özlüyün artması hesabına laya vurulan suya polimer əlavə edilməsindən ibarətdir. Hazırda polimer daşqını üsulundan həm yüngül, həm də ağır neft yataqlarında istifadə olunur. Bu texnologiyalarda istifadə olunan polimerlər uzun müddət ərzində yüksək temperatur və yüksək minerallaşma dərəcəsinə davamlılıq qabiliyyətinə malikdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, laboratoriya şəraitində neytrallaşdırılmış poliakril turşusunun heptilmetildietilolammoniumbromid əsasında alınmış polimer kompleks sintez olunmuşdur. Reagentin quruluşu aşağıdakı kimidir:



Stalaqmometr vasitəsilə kerosin-su sərhədində alınmış maddənin 0.05%-li sulu məhlulundan istifadə etməklə 23^0C temperaturda səthi gərilməsi yoxlanılmışdır. Müəyyən edilmişdir ki, reagent həmin sərhəddə səthi gərilməni 43.5 mN/m-dən 18.4 mN/m-ə endirməklə yüksək səthi-aktivlik nümayiş etdirir. Polimer kompleksinin 50 və 75%

məhlullarından istifadə eməklə neft quyularında neftçıxarma əmsalını artırmaq üçün istifadə edilən neftsıxışdırıcı reagent kimi tədqiq edilmişdir [1-3].

Sintez olunmuş SAM neft laylarından neftçıxarma əmsalını artırmaq üçün istifadə edilən neftsıxışdırıcı reagent kimi tədqiq edilmişdir. Məlumdur ki, neftsıxışdırma aktivliyinin əsas göstəriciləri son neftsıxışdırma (η_{son}) və susuz dövrdəki neftsıxışdırma (η_{susuz}) əmsallarıdır. Bu kəmiyyətləri təyin etmək üçün uzunluğu 74 sm, daxili diametri 1,4 sm olan şüşə boruya əvvəldən 120-130 °C-də qurudulmuş kvars qumu daxil etməklə neftdaşıyıcı süxur qatının modeli hazırlanır. Belə süxur kimi, qum dənəciklərinin diametri 0.1-0.31 mm (0.1-0.16 mm – 41.5%; 0.16-0.2 mm – 52.1%; 0.2-0.31 mm – 6.4%) arasında olan fraksiya götürülür. Qum 1.5 m hündürlükdə yerləşdirilmiş damcı qıfının vasitəsi ilə neftlə doydurulur. Doyma mərhələsi başa çatdıqdan sonra yaradılmış neftli süxur modelinin əsas xarakteristikaları təyin edilir.

Sonra neftsıxışdırıcı reagentin sulu məhlulundan istifadə etməklə qumdan neftin sıxışdırılmasına başlanır. Müqayisə üçün əvvəlcə suyun özünün neftsıxışdırma qabiliyyəti təyin edilir. Müəyyən zaman fasilələrində qumdan çıxan neftin və suyun həcmi ölçülür və aşağıda göstərilən düsturlarla hesablanılır.

$$\eta_{susuz} = \frac{V_{neft\ susuz}}{V_{neft\ ümumi}} \cdot 100\%;\ \eta_{son} = \frac{V_{üm.sıx.neft}}{V_{neft\ ümumi}} \cdot 100\%$$

Su-neft faktoru (SNF) qumdan çıxan suyun və neftin nisbəti kimi müəyyən edilir:

$$SNF = \frac{V_{məhlul}}{V_{neft\ son}}$$

$V_{məh}$ - məhlulun sərfi

Burada $m_{müt}$ - mütləq məsaməlilik; S - neftlə doyma; η_{susuz} - susuz dövrdəki neftsıxışdırma; η_{son} - son neftsıxışdırma; SNF - su-neft faktoru;.

Alınmış polielektrolit tipli SAM-lar laboratoriya şəraitində neft quyularında neftçıxarma əmsalını artırmaq üçün istifadə edilən neftsıxışdırıcı reagent kimi tədqiq edilmiş və yüksək effektivliyə malik olduqları təsdiq edilmişdir. Tədqiqatların nəticələri cədvəldə verilmişdir.

Cədvəl

Neytrallaşdırılmış poliakril turşusunun heptilmetildietilolammoniumbromid əsasında alınmış polimer kompleksinin 50 və 75% məhlullarından istifadə eməklə neftsıxışdırıcı qabiliyyətinin tədqiqat nəticələri (0.05 %-li sulu məhlul şəklində)

Reagent	$m_{müt}$, %	S,%	η_{susuz},%	η_{son}, %	Məhlul sərfi	SNF
Dəniz suyu	37.08	81	11.88	40.91	5.32	15.87
Polimer SAM (50%-li məhlul şəklində)	38.20	78.41	19.30	93.75	11.6	15.77
Polimer SAM (75%-li məhlul şəklində)	32.58	108.5	24.5	68.87	13.20	17.67

Məlumdur ki, neftsıxışdırma aktivliyinin əsas göstəriciləri son neftsıxışdırma və susuz dövrdəki neftsıxışdırma əmsallarıdır. Cədvəldəki nəticələrdən görünür ki, alınmış polielektroli tipli SAM neftsıxışdırıcı reagent kimi yüksək effektivliyə malikdir. Belıə ki, SAM-ın dəniz suyunda məhlulunun susuz dövrdəki neftsıxışdırma əmsalı 11.88 %, son neftsıxışdırma isə 40.91 %, polimer SAM isə müvafiq olaraq 50%-li məhlul şəklində 19.30 % və 93.75 %, 75%-li məhlul şəklində isə 24.5 % və 68.87 % təşkil edir.

Təqdim olunan konfrans materialı SOCAR-ın Elm Fondunun “Quyulardan nef hasilatını artırmaq üçün yeni SAM-polielekrolit komplekslərinin alınması və tədqiqi” layihəsi çərçivəsində yerinə yetirilmişdir.

ƏDƏBİYYAT

1. А. Тома, Б. Саюк, Ж. Абиров, Е. Мазбаев Полимерное заводнение для увеличения нефтеотдачи на месторождениях легкой и тяжелой нефти Добыча нефти и газа № 7-8 август 2017 с.58-66
2. Juri J.E., Ruiz A., Pedersen G., et al. Grimbeek –120 cp Oil in a Multilayer Heterogeneous Fluvial Reservoir. First Successful Application Polymer Flooding at YPF. Paper EAGE Th B06 presented at the 19th European Symposium on Improved Oil Recovery, Stavanger, Norway, 24–27 April 2017.
3. Leblanc T., Braun O., Thomas A., et al. Rheological Properties of Stimuli-Responsive Polymers in Solution to Improve the Salinity and Temperature Performances of Polymer-Based Chemical Enhanced Oil Recovery Technologies. Paper SPE 174618 presented at the SPE Enhanced Oil Recovery Conference held in Kuala Lumpur, Malaysia, 11–13 August 2015.

HİDROKREKİNQ PROSESİNDƏ İSTİFADƏ EDİLƏN AZ-4 KATALİZATORUNUN FİZİKİ-KİMYƏVİ XASSƏLƏRİNİN TƏDQİQİ

A.B.Həsənova[1], G.S.Muxtarova[2], H.C.İbrahimov[2]

[1]AMEA Gəncə Bölməsi

[2]AMEA akad. Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu

ayshe_hesenova@rambler.ru

Neft emalı sənayesinin əsas inkişaf istiqamətlərindən biri ağır neft qalıqlarını (mazut, qudron) emala cəlb etməklə əlavə açıq rəngli neft məhsulları (benzin və dizel fraksiyaları) almaqdır. Ağır neft qalıqlarının tərkibində ağır metal üzvü birləşmələr, azotlu, küküdrlü heteroatomlu birləşmələr, qatran və asfalt maddələri olduğu üçün onların ənənəvi texnologiyalarla emalında – katalizatorların stasionar layında tablet, qranul və ya toz şəklində istifadəsi zamanı bir sıra problemlər yaranır. Belə ki, katalizatorlar dönməz zəhərlənərək tez sıradan çıxır. Bununla yanaşı, ağır neft qalıqlarının dərin emalı proseslərində hidrogenləşmə prosesinə ilk növbədə yüksək molekullu birləşmələr məruz qaldıqlarından və onların molekullarının ölçüləri geniş mikro- və makroməsaməli sisteminə malik adi stasionar katalizatorların məsamələrinin maksimal ölçülərindən böyük olduğundan, emal zamanı onların katalizatoruların səthlərinin qismən örtməsi nəticəsində katalitik mərkəzlərin aktivliyinin və səmərəliliyinin azalması baş verir. Bu səbəbdən də ağır neft qalıqlarının dərin emal proseslərində istifadə olunan katalizatorlar uzun müddətli yüksək aktivliyə, daim yeniləşən səthə malik olmalıdır [1].

Son illərdə ağır neft qalıqlarının dərin emalı istiqamətində mazutun, qudronun yeni emal texnologiyası işlənib hazırlanmışdır [2, 3]. Bu yeni texnologiyada katalizatorlar yüksək dispersliyə gətirilərək xammalda suspenzləşdirilmiş şəkildə istifadə edilir.

Ağır neft qalıqlarının emalında müxtəlif sənaye katalizatorları, seolitlər (kaolinit, halloizit və s.) istifadə edilmiş, daha sonra proses yerli təbii seolittərkibli Az-4 (şərti olaraq Az-4 adlandırılmışdır) katalizatorunun iştirakında aparılmışdır ki, bu da iqtisadi səmərəlilik baxımından böyük əhəmiyyət kəsb edir. Az-4 katalizatorunun iştirakı ilə mazutun hidrokrekinqi prosesindən 50-55% (kütlə) çıxımla açıq rəngli neft məhsulları (benzin və dizel fraksiyaları) alınmışdır [4].

Bu tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, respublikamızda bu məqsəd üçün işlədilə bilən təbii material mövcuddur. İstifadə edilən Az-4 katalizatoru müxtəlif fiziki-kimyəvi tədqiqat üsulları – rentgeno-fluoresent, rentgen-faza analiz metodu vasitəsilə tədqiq edilmişdir.

Yataqdan götürülmüş Az-4 seoliti yuyulub, qurudulduqdan sonra element tərkibi rentgeno-fluoresent mikroskopu vasitəsilə təyin edilmişdir (cədvəl 1). Cədvəldən göründüyü

kimi katalizatorun əsas tərkib hissəsini 12,44 % Al_2O_3 ; 63,21 % SiO_2; 11 % CaO, 9,8 % Fe_2O_3 təşkil edir.

Cədvəl

Az-4 katalizatorunun rentgen-fluoresent mikroskopu vasitəsilə element tərkibi

Nümunə	Elementlər, % kütlə										
	Al_2O_3	SiO_2	K_2O	CaO	TiO_2	MnO	Na_2O	MgO	P_2O_5	SO_3	Fe_2O_3
Az-4 katalizatoru	12,44	63,21	4,15	10,99	0,97	0,15	0,85	1,02	0,057	0,015	9,84

Az-4 katalizatorunun rentgen faza analiz (RFA) metodu ilə faza tərkibi öyrənilmişdir. Rentgen spektri otaq temperaturunda θ-θ = 90° intervalında; rentgen dalğa uzunluğu $\lambda(CuK_\alpha)$ =1,54 Å olmaqla çəkilmişdir (şəkil 1). Xammalın tərkibində Si, Al, Ca, Mg, Na, C və O elementləri təyin edilmişdir. PANanalytical Empyrean difraktometrində aparılan rentgen faza analizi göstərmişdir ki, həmin elementlər silisium oksid, kalsium karbonat, kardierit, klinoxlor və sodium anortit fazaları kimi xammalın tərkibində mövcuddur. 180^0C-yə qədər qızdırılmış nümunənin tərkibində dəyişikliklər baş vermir. Şəkil 1-də verilən difraktoqram qeyd edilən göstəriciləri təsdiq edir.



Şəkil 1. Az-4 katalizatorunun rentgen faza spektri

Tədqiq edilən katalizator nümunəsi suspenziya şəklində mazutun hidrokrekinq prosesində (400-450°C, 0,5-6 MPa, katalizatorun miqdarı 2,5% olmaqla) istifadə edilmiş və 50-55% kütlə açıq rəngli neft məhsulları (benzin, dizel fraksiyaları) alınmışdır.

Mazutun hidrokrekinqindən alınan benzin və dizel fraksiyaları hidrotəmizləmədən sonra əmtəə yanacaqlarına komponent kimi, benzin fraksiyası eyni zamanda piroliz prosesinə xammal kimi, alınan qaz NEZ-də yanacaq kimi istifadə edilə bilər, qalıq fraksiyasını isə bitum istehsalına yönəltmək olar.

ƏDƏBİYYAT SİYAHISI

1. Mukhtarova G.S., Abbasov V.M., Ibrahimov H.J., Huseynova R.İ., Eyyubova Kh.T. The investigation of the hydrocracking process of tar with heavy gas oil of catalytic cracking in the presence of high-dispersed halloysite. “International Conference on

Thermophysical and Mechanical Properties of Advanced Materials" (THERMAM-2014), 12-15 June 2014, Cesme-Izmir Turkey, p. 67.
2. Muxtarova G.S., Abbasov V.M., İbrahlmov H.İ, Huseynova R.İ., Efendiyeva N.Kh. Syntehesis of of nanostructured metal containing catalysts and their use at refining of heavy oil residues. 1st International Turkic World Conference on Chemical Sciences and Technologies, 27 october-1 november 2015, Sarayevo, p.285.
3. Muxtarova G.S., Hüseynova R.İ., İbrahimov H.C., Rüstəmov M.İ., Abbasov V M. Qudronun katalitik krekinqin ağır qazoylu və pirolizin ağır qatranı ilə birgə hidrokrekinqi. Neft kimyası və neft emalı prosesləri 16. № 3 (63) 2015, s.249-253.
4. Abbasov V.M., İbrahimov H.C., Muxtarova G.S., Abdullayev M.Ə., Əfəndiyeva N.X. Ağır neft qalıqları qarışıqlarının hidrokrekinqindən açıq rəngli neft məhsullarının alınması prosesinin tədqiqi. Gəncə Dövlət Universiteti "Müasir biologiya və kimyanın aktual problermləri" Elmi-Praktiki Konfransının məruzələr, Gəncə, 05-06 may, 2015, s. 237-239.

SƏNAYE KATALİTİK KREKİNQ PROSESİNDƏN ALINAN KARBOHİDROGEN QAZLARININ KOMPONENT TƏRKİBİNİN TƏDQİQİ

J.M.Məmmədova, R.B.Məmmədov
Bakı Ali Neft Məktəbi, H.Əliyev adına Neft Emalı Zavodu
raufsocarmamedov@mail.ru

Neft emalı müxtəlif texnoloji prosesləri özündə birləşdirən iri sənaye kompleksidir. Bu kompleksin əsas texnoloji proseslərindən biri katalitik krekinq prosesidir. Prosesdə benzin komponentindən başqa digər qiymətli məhsullar da alınır ki, həmin məhsullardan neft-kimya sintezi proseslərində xammal kimi geniş istifadə edilir[1]. Krekinq prosesində xammal kimi daha çox neftin ilkin emalı proseslərinin vakuum distillatlarından istifadə edilir. Katalitik krekinq prosesində ən çox matrisası sintetik amorf alümosilikat, aktiv komponenti seolitdən və digər əlavələrdən ibarət olan çoxkomponentli katalizatordan istifadə edilir [2,3]. Cədvəl 1-də müasir katalizatorlardan birinin fiziki-kimyəvi göstəriciləri öz əksini tapmışdır.

Cədvəl 1

Katalitik krekinq katalizatorunun fiziki-kimyəvi göstəriciləri

Adları	Göstəricilər
Hissəciklərin ölçüsü, % 0-149 mikron 0-20 mikron 0-40 mikron 0-80 mikron Hissəciklərin orta ölçüsü, mikron	 91 1 12 51 79
Mikro aktivlik, % (kütlə, konversiya)	79
Közərtmədən sonra kütlə itkisi, %	2,2
Al_2O_3, % (kütlə)	41
Na_2O, % (kütlə)	0,32
Re_2O_3, % (kütlə)	1,8
ABD, g/ml	0,69
Devison indeksi (Dİ)	5
Səthinin sahəsi, m^2/qr	325
Məsamələrinin həcmi, sm^3/qr	0,44

Son zamanlar məqsədli məhsulun çıxım və keyfiyyət göstəricilərini yaxşılaşdırmaq üçün ZSM-5 əsasında alınmış əlavələrdən istifadə edilir. İlkin xammalın tərkibində olan dezaktivləşdirici qarışıqların təsirini azaltmaq üçün Sb, Bi, Sn və s. metalüzvi birləşmələr əsaslı metal passivləşdiricilərdən istifadə edilir. Krekinqin yağlı qazlarının tərkibində olan i-butilen yüksəkoktanlı oksigenat aşqarı olan MTBE-nin (metiltretbutil efiri) sintezində əsas xammal mənbəyi kimi istifadə edilir. Bundan başqa yağlı qazlar avtomobillərdə yanacaq kimi, neft-kimya məhsullarının alınmasında xammal, məişətdə yanacaq kimi və s. istifadə edilir. Karbohidrogenlərin krekinqi prosesinə təsir edən əsas faktor temperaturdur. Katalitik krekinq prosesində krekinq yüksək temperaturda diffuziya, mülayim temperaturda isə kinetik sahədə gedir. Temperaturun azalması kimyəvi reaksiyanın sürətini diffuziyadan çox dəyişdiyi üçün azalma istiqamətində elə temperatur intervalı var ki, diffuziya və kimyəvi reaksiyanın sürətləri müqayisə olunur. Buna keçid sahəsi deyilir. Mülayim temperaturda krekinq kinetik sahədə gedir. Katalitik proseslərin kinetik sahədə getməsi daha sərfəlidir. Çünki, kinetik sahədə katalizatorun maksimum məhsuldarlığı təmin olunur və məqsədli məhsulların çıxımı artır [2,3]. Əgər proses diffuziya sahəsində gedirsə, onda onun sürəti temperaturdan az asılı olur. Kimyəvi reaksiya ən yavaş mərhələdə gedirsə, onda prosesin sürəti əsasən temperaturdan asılı olur. Ancaq temperaturun artması ilə sürətin artması müəyyən həddə qədər ola bilər, sonra isə reaksiya diffuziya sahəsinə keçir. Neft email sənayesinin digər texnoloji proseslərində olduğu kimi katalitik krekinq prosesində də su buxarından geniş istifadə edilir. Bu prosesdə reaktora verilən su buxarı əsasən aşağıdakı funksiyaları yerinə yetirir [2]: xammalın səpələnməsi; regenerasiya edilmiş katalizatordan izafi istiliyin çıxarılması; rayzerdə ümumi sıxlığın azaldılması; katalizatorun sıxlaşmasının qarşısını alır; temperaturu az da olsa tənzimləyir; rayzerdə tələb edilən sıxlıq qatını yaradır (optimal sıxlıq 120-150 kq/m^3); katalizator hissəciklərinin hərəkət sürətinə (artırır) təsir edir; qaynar layın sıxlığının, hündürlüyünün tənzimlənməsi; buxarlanma zonasında katalizator səthindən ağır k/h-in buxarlandırılması və s.

Praktik nəticələrə əsasən paylayıcı quruluşdan xammal ilə reaktora daxil olan su buxarının miqdarı xammala görə orta hesabla 1 % təşkil etdiyi məlum olur. Xammalın fiziki-kimyəvi xüsusiyyətlərindən və texnoloji zərurətdən asılı olaraq bu rəqəm dəyişə bilər. Katalitik krekinq prosesindən xeyli miqdarda yan məhsul kimi quru və maye qazlar alınır.

Г-43-107M tipli katalitik krekinq qurğusundan alınan quru və maye qazların komponent tərkibi müasir analiz üsulları ilə tədqiq edilmiş və cədvəl 2 və cədvəl 3-də göstərilmişdir. Qeyd edək ki, həmin cədvəllərdə göstərilən qiymətlər ümumi xarakterə malikdir və tətbiq edilən katalizator, xammal, texnoloji parametrlərdən asılı olaraq fərqli göstəricilərə malik ola bilər.

Cədvəl 2

Katalitik krekinq prosesindən alınan quru qazın komponent tərkibi

Komponentlər	Miqdarı, % (kütlə)
Metan	25,35
Etan	23,85
Etilen	21,04
Propan	0,66
Propilen	2,89
C_4 karbohidrogenlərinin cəmi	4,60
C_5 karbohidrogenlərinin cəmi	5,52
Qeyri-karbohidrogen qazlarının cəmi	16,09
Cəmi komponentlər	100

Cədvəl 2-dən göründüyü kimi, quru qazın tərkibində metanın miqdarı ümumi karbohidrogenlərə nəzərən xeyli azdır ki, bu da həmin qazdan neft-kimya prosesində

xammal kimi istifadə effektivliyini artırır. Qazın tərkibində təkcə etilen və propilenin ümumi miqdarı 23,93% (kütlə) təşkil edir ki, bu isə neft emlı və neft-kimyası arasında keçid prosesi kimi tətbiq edilən piroliz qurğusunun ümumi məhsuldarlığının yüksəldilməsinə səbəb olur.

Cədvəl 3

Katalitik krekinq prosesindən alınan maye qaz fraksiyalarının komponent tərkibi

Komponentlər	Miqdarı, % (kütlə)	
	Propan-propilen fraksiyası (PPF)	Butan-butilen fraksiyası (BBF)
Metan	-	-
Etan	2,57	0,004
Etilen	0,22	-
Propan	27,71	1,17
Propilen	69,13	0,25
C_4 karbohidrogenlərinin cəmi	0,36	-
i-butan	-	44,11
n-butan	-	11,79
i-butilen	-	12,11
Trans-buten	-	7,93
Sis-buten	-	6,42
Buten-1	-	8,60
C_5 karbohidrogenlərinin cəmi	0,01	7,46
Qeyri-karbohidrogen qazlarının cəmi	-	0,156
Cəmi komponentlər	100	100

Cədvəl 3-dən göründüyü kimi hər iki fraksiyanın tərkibi onların neft-kimya sənayesində xammalı kimi istifadəsinə imkan verir. PPF-in tərkibində 96,84% C_3, BBF-in tərkibində 90,96% C_4 karbohidrogenlərdən ibarətdir. Qeyd edək ki, katalitik krekinq prosesindən alınan karbohidrogen qazları tərkibində olan nəmlik və turş komponentlər müvafiq üsullarla təmizlənərək istehlakçılara çatdırılır.

Ədəbiyyat siyahısı

1. Jorge Ancheyta. Modeling and simulation of catalytic reactors for petroleum refining. Canada. 2011, p.511
2. R.B.Məmmədov. Neft və qaz emalı prosesləri suallar və cavablarda. Bakı, 2020, 772 s.
3. Reza Sadeghbeigi. Fluid catalytic craking. Printed in the United States, third edition 2012, p.361

NAFTALAN NEFTİNİN TƏMİZLƏNMƏSİNDƏ ADSORBENTLƏRİN TƏDQİQİ

F.Əliyev, İ.Cəfərova, G.Əsgərova, N.Nağıyev
AMEA Gəncə Bölməsi
cafarova_ilash@mail.ru

Dünyada analoqu olmayan Naftalan nefti müalicəvi xüsusiyyətlərinə görə oxşar neftlərlə müqayisədə təkrarsızdır. Naftalan nefti müalicə məqsədilə istifadə edildikdən sonra tullantı kimi kənarlaşdırılır. Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Naftalan neftinin tullantısının tərkibində 12-20%-ə qədər bioloji-aktiv birləşmələr - naftenlər qalır.

Tullantılardan naften fraksiyasının çıxarılması üçün yerli xammallar əsasında hazırlanan adsorbentlərdən istifadə edilir. Termiki aktivləşdirmə zamanı adsorbentdə baş verən fiziki və kimyəvi proseslər nəticəsində onun adsorbsiya xassələri və xüsusi səthi dəyişir [2].

Adsorbsiya prosesində adsorbent kimi yerli xammal olan Qazax rayonunun Daş Salahlı kəndinin Alpoud yatağından çıxarılan bentonitdən istifadə edilir.

Müalicəvi Naftalan nefti və onun istismarından sonra toplanan tullantıların kanserogen birləşmələrdən adsorbsiya üsulu ilə təmizlənməsində adsorbent kimi istifadə edilə biləcək yerli xammal ehtiyatlarının araşdırılması, ən vacib məsələlərdən biridir.

Bentonitdən hazırlanmış adsorbentlər neftin və onun tullantılarının tərkibində olan qətranları və aromatik birləşmələrin adsorbsiya üsulu ilə təmizlənməsində istifadə olunmuşdur.

Müəyyən edilmişdir ki, yerli xammal əsasında hazırlanan adsorbentlər adsorbsiya, xüsusiyyətlərinə malikdir, ekoloji cəhətdən və qiymətinə görə daha ucuzdur və başqa ölkələrdən gətirilən adsorbentləri əvəz edə bilər [1].

Bentonit istifadə edilməmişdən əvvəl onun tərkibindəki kənar maddələr və kristalizasiya suyu kənarlaşdırılır. Çünki, suyun miqdarının adsorbentdə olması su molekulları arasındakı Van-der-Vaals qüvvələrinin qarşılıqlı təsirindən yaranması nəticəsində adsorbentin səthi öz xüsusiyyətini itirməyə başlayır. İstifadə olunan bentonit kimyəvi tərkibi rentgeno-flüoressent mikroskopu vasitəsilə, “Foster Fereman” lazer-induksiya spektrometrində isə element tərkibi təyin edilmişdir (cəlvəl 1-2).

Cədvəl 1

Bentonitin kimyəvi tərkibi

Nümunə	Elementlərin oksid şəklində miqdarı, % kütlə								
	Na_2O	MgO	Al_2O_3	SiO_2	K_2O	CaO	TiO_2	MnO_2	Fe_2O_3
Bentonit	2.54	0.86	12.91	65.21	-	10.38	0.74	0.06	7.30

Cədvəl 2

Bentonitin element tərkibi

Nümunə	Elementlər, mq/kq											
	K	Ca	Ti	Fe	Co	Zn	As	Rb	Sr	Zr	Mo	Ba
Bentonit	-	580	2378	10049	174	17	-	15	285	133	-	235

Adsorbent kimi yerli xammal olan bentonitdən müxtəlif tərkibli adsorbentlər hazırlanmış və adsorbsiya xüsusiyyətləri tədqiq olunmuşdur. Adsorbent kimi yüksək uduculuq qabiliyyətinə malik olan bentonit gilinin ən yaxşı texnoloji xüsusiyyətlərindən biri montomorillonitin tərkibində dəyişən natrium kationlarının olmasıdır.

Təmizləmə prosesində adsorbentin məsamələrinin ölçüləri də xüsusi əhəmiyyət kəsb edir. Təmizləmənin dərinliyi və selektivliyi məsamənin ölçülərindən çox asılıdır. . Qərb bölgəsində mövcud olan adsorbsiya xassəli birləşmələrin- bentonitin (toz və qranula) müxtəlif çəki nisbətlərində adsorbsiyasının kinetikası, statistik aktivliyi tədqiq olunmuşdur. Dinamik adsorbsiyanın miqdarı hesablanması prosesi, fazaların nisbi yerdəyişmə sürətindən, adsorbent təbəqəsinin qalınlığından, onun dənəvərliyindən asılılığı müəyyən edilmişdir.

Adsorbsiya üsulu ilə Naftalan neftinin və tullantılarının tərkibində olan kanserogen birləşmələrin ayrılması digər fiziki üsullardan daha yüksək ekoloji təmizliyə malikdir. Odur ki, təbii bentonitdən alınan adsorbentlər əsasında Naftalan nefti və tullantılarından geniş aspektdə neft fraksiyalarının alınması günümüzün əsas tələblərindən biridir [3,4] Alınan nəticələr göstərir ki, müalicəvi neftin təklif olunan təmizləmə texnologiyası daha əlverişlidir və yüksək təmizliklə naften fraksiyasının alınmasına imkan verir. Adsorbent kimi ucuz və təbii minerallardan istifadənin mümkünlüyü prosesin iqtisadi səmərəliliyini daha da artırır və ekoloji problemlərin həllinə imkan yaradır.

Ədəbiyyat

1. Əliyev F.Y., Cəfərova İ.A. Bentonit əsaslı adsorbentlərlə Naftalan neftinin kanserogen birləşmələrdən təmizlənməsi. Xəbərlər Məcmuəsi, Gəncə 2021. №1(80), s. 3-7.
2. Гулиева С.А. Уникальная лецебная нафталановая нефть, Баку, 1981. 231с.
3. Nəcəfova G.Ə. Müalicəvi Naftalan nefti fraksiyalarının fiziki-kimyəvi xassələri. Azərbaycan kimya jurnalı, 2013, № 3, s. 247-257.
4. Əcəmov K.Y, Bağırova N.N. “Katalizator və adsorbentlərin hazırlanması” Bakı- 2011, səh 229

ETİLENDİAMİN, PROPİLEN OKSİDİ VƏ TRİDEKAN TURŞUSU ƏSASINDA YENİ GEMİNİ SƏTHİ-AKTİV MADDƏNİN ALINMASI VƏ XASSƏLƏRİNİN TƏDQİQİ

R.A.Rəhimov [1,2], A.M.İsayeva[1]

[1]AMEA akad. Y.H. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu

[2]Bakı Mühəndislik Universiteti

aygunismayilova@mail.ru

Ədəbiyyatdan məlum olduğu kimi səthi-aktiv maddələrin (SAM) xassələri hidrofil və hidrofob qrupların təbiəti və quruluşundan asılı olaraq dəyişir. Son zamanlar dialkil qruplu (gemini tipli) SAM-lar tədqiqatçıların böyük marağına səbəb olmuşdur. Çünki gemini tipli SAM-lar oxşar quruluşlu sadə sadə, təkzəncirli analoqlarına nisbətən bir sıra üstün xassələrə, daha universal strukturlu quruluşa malikdir, bu isə onların tətbiq imkanlarını artırır. Məhz buna görə də belə səthi-aktiv maddələrin sintezi, tədqiqi və perspektivli tətbiq sahələrinin araşdırılması istiqamətində aparılan tədqiqat işləri mütəxəssislərin diqqətini xüsusilə cəlb etməkdədir.

Bu baxımdan təqdim edilən işin məqsədi nisbətən daha sadə üsulla, yəni etilendiamin, propilen oksidi və tridekan turşusu əsasında yeni dialkil qruplu SAM-ın sintezi və xassələrinin öyrənilməsidir.

Tədqiqat işi ikimərhələli üsulla aparılmışdır. Birinci mərhələdə etilendiamin ilə propilen oksidi 1:4 mol nisbətində götürülmüş və oksipropilləşmə reaksiyası aparılmışdır. Reaksiya otaq temperaturunda və katalizatorsuz şəraitdə aparılmışdır. Reaksiyanın ümumi sxemi aşağıdakı kimi göstərmək mümkündür:



Sintez olunmuş N,N,N',N'-tetrakis(2-hidroksipropil)etilendiamin sarımtıl rəngli özlü bərk maddədir. O suda, etanolda, heksanda və asetonda yaxşı həll olur. Sonrakı mərhələdə

isə 50-55°C temperaturda bu maddənin tridekan turşusu ilə reaksiyası aparılmışdır. Bu reaksiyanın ümumi sxemini belə göstərmək olar:



Reaksiya nəticəsində sintez edilmiş SAM pastaşəkilli maddədir. O, suda, etanolda, asetonda yaxşı həll olur. Bu SAM-ın quruluşu İQ- və NMR- spektroskopiya metodları vasitəsilə təsdiq edilmişdir. Eyni zamanda tenziometrik metodla alınmış maddənin sulu məhlullarının hava-su sərhədində səthi gərilməsi, konduktometrik üsulla isə xüsusi elektrik keçiriciliyi təyin edilmişdir.

Tenziometr vasitəsilə su-hava sərhədində 25 °C-də aparılmış tədqiqatların nəticələrindən görünür ki, tridekan turşusu əsasında alınmış duz səthi gərilmənin qiymətini 71,81 mN/m-dən 24,91 mN/m-ə qədər azaldır.

Alınmış SAM-ın həmçinin neftyığıcı və neftdispersləyici xassəsi öyrənilmişdir. Tədqiqatlar laboratoriya şəraitində içməli, dəniz və distillə sularının səthində Balaxanı neftinin nazik təbəqəsi üzərində aparılmışdır. Məlum olmuşdur ki, alınmış duzun dəniz suyunda durulaşdırılmamış halında neftdispersləmə əmsalının maksimal qiyməti 83.5%-ə, 5%-li sulu məhlulu şəklində neftyığma əmsalının maksimal qiyməti 10.13-ə bərabərdir.

Məlum olmuşdur ki, bu cür xassəyə malik SAM su hövzələrinin səthindən ekoloji təhlükəli neft təbəqələrini kənar etməyə imkan verir.

Sintez edilmiş SAM-ın eyni zamanda sulfat-reduksiyaedici bakteriyalara (SRB) qarşı bakterisid xassələri öyrənilmişdir. Məlumdur ki, sulfat-reduksiyaedici bakteriyaların təsiri ilə sulfat ionları reduksiya olunaraq hidrogen sulfidə çevrilir. Nəticədə alınmış H_2S ətraf mühitdə olan metalları güclü korroziyaya uğradır. Tədqiatlar 50, 100, 150 mq/L qatılıqlarda aparılmışdır. Müəyyən edilmişdir ki, N,N,N',N'-tetrakis(2-hidroksipropil)etilendiammonium tridekonat əsasında alınmış gemini SAM 150 mq/L qatılıqda tətbiq edildikdə SRB-nin inkişafının qarşısını 96,1% alır.

SOYA YAĞI TURŞU QARIŞIĞININ HEKSAMETİLENDİAMİDİNİN ALINMASI VƏ SƏTHİ AKTİVLİK XASSƏLƏRİNİN TƏDQİQİ

N.V.Salamova, S.K.Eyyubova, S.M.Hüseynova, A.M.İsayeva, G.M.Bayramova
AMEA akad.Y.H. Məmmədəliyev adına Neft-Kimya Prosessləri İnstitutu
e-mail: e_nargiz@mail.ru

Hal-hazırda bütün dünyada hidrosferin neft və neft məhsulları ilə çirklənməsi getdikcə sürətləndiyindən ciddi qlobal ekoloji problemlər yarada bilər. Bu məqsədlə, bərpa oluna bilən xammal növlərinə aid olan gənəgərçək yağı və heksametilendiamin əsasında ekoloji zərərsiz neftyığıcı və dispersləyici reagentlərin alınması böyük maraq doğurur.

Soya yağı triqliseridlərinin heksametilendiamin ilə reaksiyasından aminoamid sintez edilmişdir. Reaksiya reagentlərin 1:3,2 mol nisbətində 120^0C-də və 15 saat müddətində aparılmışdır. Nəticədə pastaşəkilli açıq qəhvəyi rəngli maddə alınmışdır. Soya yağı turşu qarışığının (SYTQ) heksametilendiamidi suda qismən, etanolda, asetonda, etilasetatda yaxşı həll olur. Reaksiyanın ümumi sxemi aşağıdakı kimidir:



Alınmış maddələrin quruluşu İQ-spektroskopiya üsulu ilə təsdiq edilmişdir.

SYTQ-nin heksametilendiamidinin iştirakı ilə hava-su sərhədində səthi gərilmələrin qiymətləri təyin edilmişdir (cədvəl 1).

Cədvəl 1

SYTQ-nin heksametilendiamidinin hava-su sərhədində səthi aktivliyinin tədqiqatı nəticələri (t=17 °C)

SAM-ın qatılığı (% kütlə ilə)											
0.00025	0.0005	0.00075	0.001	0.0025	0.005	0.0075	0.01	0.025	0.05	0.075	0.1
Hava-su sərhədində səthi gərilmənin qiymətləri, $mN \cdot m^{-1}$											
49.4	46.1	42.9	39.4	37.4	38.8	37.8	37.1	37.8	37.6	34.5	34.5

Cədvəldən görünür ki, alınmış səthi-aktiv maddənin (SAM) qatılığı artdıqca səthi gərilmənin qiyməti azalır. Belə ki, bu maddənin 0.1%-li sulu məhlulu su-hava sərhədində səthi gərilmənin qiymətini 72.27 mN/m-dən (SAM-sız) 34.5 mN/m-ə qədər azaldır.

SYTQ-nın heksametilendiamidinin müxtəlif qatılıqlı sulu məhlullarının xüsusi elektrik keçiriciliyinin qiymətləri konduktometrin köməyi ilə təyin edilmişdir (şəkil 1). Şəkildən göründüyü kimi məhlulda SAM-ın qatılığı artdıqca xüsusi elektrik keçiriciliyinin qiymətləri artır.



Şəkil 1 – SYTQ-nın heksametilendiamidinin müxtəlif qatılıqlı sulu məhlullarının xüsusi elektrik keçiriciliyinin tədqiqatı nəticələri (t=25 °C)

SYTQ-nın heksametilendiamidinin neftyığma və neftdispersləmə qabiliyyəti bu reagentin durulaşdırılmamış məhsul və 5%-li sulu məhlulundan istifadə etməklə üç müxtəlif suda (distillə, içməli və dəniz suyu) Balaxanı nefti təbəqəsi üzərində öyrənilmişdir. Reagentin effektivliyi ilkin neft təbəqəsinin səth sahəsinin neçə dəfə kiçildiyini göstərən neftyığma əmsalı (K), reagentin təsirindən su səthinin neftdən təmizlənmə dərəcəsini göstərən - K_D (%-lə) və saxlama müddəti τ ilə qiymətləndirilir.

Cədvəl 2

SYTQ-nın heksametilendiamidinin neftyığma və neftdispersləmə qabiliyyətinin tədqiqat nəticələri (neft təbəqəsinin qalınlığı 0.17 mm)

Reagentin neftin səthinə verilmə halı	Distillə suyu		İçməli su		Dəniz suyu	
	τ, saat	K/(K_D,%)	τ, saat	K/(K_D,%)	τ, saat	K/(K_D, %)
Durulaşmamış məhsul	0-1.0 3.5-6.0 28.0 70.0	8.6 10.0 8.6 13.4	0-6.0 28.0 50.0-70.0	4.8 13.4 91.1%	0-1.0 3.5-6.0 28.0 50.0- 70.0	3.1 11.5 98.9- 89.3% 91.1%
5%-li sulu dispersiya	0 1.0-70.0	8.6 91.1%	0 1.0-6.0 28.0-70.0	8.6 20.3 91.1%	0-1.0 3.5-6.0 28.0- 70.0	89.3% 79.9% 91.1%

Cədvəl 2-dən göründüyü kimi SYTQ-nın heksametilendiamidinin distillə suyunda durulaşdırılmamış məhsul formasında neftyığma (K_{maks}=13.4), 5%-li məhlul formasında isə ilkin mərhələdə neftyığıcı, bir saatdan sonra isə neftdispersləyici kimi qarışıq effekt büruzə verir. Reagent içməli suda hər iki tətbiq formasında neftyığıcı-dispersləyici kimi qarışıq effekt göstərir (reagentin 5%-li məhlul formasında K_{maks}=20.3, dispersləmə dərəcəsi maksimum halda K_D 91.1%). Reagent dəniz suyunda 5%-li məhlul formasında neftdisperqatordur.

SƏNAYE PLATFORMİNQ QURĞUSUNDAN ALINAN PLATFORMATIN ƏMTƏƏ XASSƏLƏRİNİN TƏDQİQİ

J.M.Məmmədova, R.B.Məmmədov
Bakı Ali Neft Məktəbi, Heydər Əliyev adına Neft Emalı Zavodu
raufsocarmamedov@mail.ru

Avtomobil benzinlərinin detonasiyaya davamlılığını artırmaq üçün sənayedə tətbiq edilən proseslərdən biri də katalitik riforminq prosesidir. Prosesin əsas mahiyyəti mühərrikin detonasiya davamlığının yüksəldilməsinə nail olmaqdır [3]. Prosesdə əsasən platin tərkibli katalizatorlar tətbiq edilir. Bu tip katalizatorlar bifunksional olduğu üçün karbohidrogenlərin aromatikləşməsi prosesi yüksək sürətlə gedir. Qeyd edək ki, riforminq prosesində turşu katalitik reaksiyaların sürəti katalitik krekinqlə müqayisədə yüksək olur. Belə ki, katalitik krekinqlə müqayisədə katalitik riforminq prosesində karbokation xeyli asan alınır. Burada bifunksional katalizator istifadə olunduğuna görə reaksiyanın başlanması üçün vacib olan alkenlər alkan və tsikloalkanların platin üzərində qismən dehidrogenləşməsindən alınır. Sonra isə alkenlər turşu aktiv mərkəzlər hesabına protonlaşaraq karbokationa çevrilir ki, həmin karbokation da özünə xarakterik olan reaksiyalara daxil olur [1-3].

Proses zamanı katalizatorun səthi kokslaşmağa başlayır. Bir qayda olaraq bimetallik riforminq katalizatorları səthində koks aktiv mərkəzlərdən kənarda toplanır. Bu mərkəzlər molekulyar hidrogenin dissosasiyası və hidrogen atomunun miqrasiyasına qarşı yüksək aktivliyə malikdir. Ona görə də koks aktiv mərkəzlərdən uzaqda toplanır və katalizator uzun müddət öz aktivliyini qoruyub saxlayır [3]. Reaktorlarda katalizatorun kokslaşma intensivliyi yuxarıdan aşağıya doğru sıralandıqca artır. Belə ki, xammal hər reaktordan keçdikcə tərkibi daha çox aromatik karbohidrogenlərlə zənginləşir və yüksək temperaturda kokslaşmağa meyilliyi artır ki, nəticədə sonuncu reaktorda aromatik karbohidrogenlərin konsentrasiyası çox olduğu üçün həmin reaktor daxilindəki katalizator səthinə daha çox koks yığılır. Həmçinin get-gedə reaktorların həcmi və daxilindəki katalizatorun miqdarı artdığı üçün

sonuncu reaktorda xammalın həcmi sürəti azalır və nəticədə xammalın katalizator səthində kokslaşma sürəti artır.

Aparılan tədqiqatlar zamanı daxilində platin tərkibli katalizator 1:1,6:2,6:4,8 kütlə nisbətlərində yerləşdirilmiş LF-35-11/1000 tipli qurğunun regenerasiya və regenerasiyasız rejimdə işlədiyi müddətdə reaktorların ümumi temperatur düşküsü 114-162^{0}C intervalında dəyişdiyi, ağır ilkin emal benzinindən alınan sabit platformatın tərkibində olan aromatik karbohidrogenlərin miqdarı 58-69 % (kütlə) təşkil etdiyi, buna uyğun olaraq platformatın oktan ədədi 93-97 (TM) vahid arasında dəyişdiyi müşahidə edilmişdir. Prosesdən alınan platformatın qeyd edilən göstəriciləri ondan müvafiq markalı avtomobil benzinlərinin istehsalı üçün komponent kimi istifadəsinə kifayət edir. Belə ki, sənayedə adətən baza avtomobil benzin komponenti kimi katalitik krekinq və katalitik riforminq proseslərindən alınan benzin komponentlərinin kompaundlaşdırılmasından istifadə edilir. Hazırda Azərbaycan Respublikasında A-92 markalı avtomobil benzinləri qeyd edilən üsul ilə hazırlanır.

Qeyd edək ki, fasiləsiz regenerasiya olunan qurğular yüksək katalitik aktivlik, aromatik karbohidrogenlərin və H_2-nin yüksək miqdarda çıxımı ilə digər qurğulardan fərqlənir.

Ədəbiyyat siyahısı

1. Алиев Р.Р. 2010. Катализаторы и процессы переработки нефти.- М.: с. 389.
2. James H.G., Gleun E.H. 2001. Petroleum refining.- USA: CRC Press p. 441.
3. Məhərrəmov A.M., Bayramov M.R., Məmmədov İ.Q., Bayramova G.M. 2012. Karbohidrogen xammalının kimyəvi emalı.- Bakı: s. 360.

COMPARATİVE ANALYSİS OF MONO AND DİMER SURFACTANTS BASED ON TETRADECANOİC ACİD AND POLYETHYLENEPOLYAMİNE

İ.A.Zarbaliyeva, H.T.Nabiyeva, A.N.Alimova, A.M.Mammadov, N.A.Rzayeva

ANAS Y.H.Mammadaliyev Institute of Petrochemical Processes

hajar.nabiyeva@gmail.com

One of the most important branches of chemistry is the rapid accumulation of thin layers of oil in order to preserve the balance of nature. Floating oil spills on sea water surface can damage the flora and fauna of underwater ecosystem and destroy the food chain in nature. After evacuating thick petroleum slicks over the ocean water by mechanical way, it is inconceivable to clean the zone from lean layer of oil spills which can be managed by utilizing surfactants. To do this, various surfactants are synthesized and investigated. From the past investigations, it has been concluded that gemini surfactants are a gather of novel surfactants with more than one hydrophilic head bunch and hydrophobic tail linked by a spacer at or near the head groups. For this reason gemini surfactants show better petrocollecting and petrodispersing property [1-6].

In this work, tetradecanoic acid and polyethylenepolyamine have been used as reactants. Two salts have been synthesized using these reactants. At first, reaction between tetradecanoic acid and polyethylenepolyamine was carried out at 9-10 hours at equimolar ratio. The other product was obtained at 2:1 ratio of tetradecanoic acid and polyethylenepolyamine. The final products were yellowish viscous. The schemes of reactions have been shown below:

$$C_{13}H_{27}COOH + NH_2\text{-}(CH_2)_2\text{-}NH\text{-}((CH_2)_2\text{-}NH))n\text{-}(CH_2)_2\text{-}NH_2 \longrightarrow$$

$$\longrightarrow C_{13}H_{27}COOH \cdots NH_2\text{-}(CH_2)_2\text{-}NH\text{-}((CH_2)_2\text{-}NH))n\text{-}(CH_2)_2\text{-}NH_2 \qquad \text{Salt 1}$$

$$2C_{15}H_{31}COOH + NH_2\text{-}(CH_2)_2\text{-}NH\text{-}((CH_2)_2\text{-}NH))n\text{-}(CH_2)_2\text{-}NH_2 \longrightarrow$$

$$\longrightarrow C_{13}H_{27}COOH \cdots NH_2\text{-}(CH_2)_2\text{-}NH\text{-}((CH_2)_2\text{-}NH))n\text{-}(CH_2)_2\text{-}H_2N \cdots C_{13}H_{27}COOH \qquad \text{Salt 2}$$

The petrocollecting property of the salt was examined using the salt in solid state, 5% wt. aqueous dispersion and 5% wt. ethanolic dispersion. The water medium was the Caspian Sea, tap and distilled waters. The result is shown in table.

Table

Results of study of petrocollecting property of the synthesized new salts; "Pirallahi" crude oil

Maximum petrocollecting and petrodispersing coefficient				
Reagent	State of surfactant	Sea water, K/K_d	Tap water K/K_d	Distilled water K/K_d
Salt 1	5 wt. % aqueous dispersion	1.5	5.12	50%
	5 wt. % ethanolic dispersion	1.3	no	91%
	Solid	80%	2.8	94.3%
Salt 2	5 wt. % aqueous dispersion	95.8%	97.1%	30
	5 wt. % ethanolic dispersion	94.3%	94.3%	30.2
	Solid	95.8%	93.3%	97.8%

As it seems from the table 1 Salt 2 which the gemini surfactant shows better petrocollecting and petrodispersing property. When we analyse the Salt 1, it is clear that this surfactant shows the best result in distilled water treated with solid phase which is 94.3%. In the distilled water another good result can be seen, this time treated with ethanolic dispersion. The striking difference is seen while we pass to the Salt 2. Almost in all cases it shows very good petrocollecting and petrodispersing property.

Generally, we can say that in terms of petrocollecting and petrodispersing properties Gemini surfactant, Salt 2 is recommended in application of oil spills removal.

References:

1. Asadov Z.H., Zarbaliyeva I.A., Abilova A.Z. New surfactants based on triglycerides, (ethanol) amines and orthophosphate acid, monograph, "Mual lim" publishing house, ISBN 978-9952-435-34-4, 2020 p. 313.
2. Asadov Z.H. Tagiyev D.B. Zarbaliyeva I.A. Seyidova G. Mir J., Hajizade H.N., Asadova N.Z.// Synthesis and study of antimicrobial properties of sur factants on the basis of cotton-seed oil, ethyldiethano lamine and orthophosphoric acid, East Europian Journal, Wschodnioeuropejskie Czasopismo Naukowe (East European Scientific Journal) #1(53), 2020 55-60
3. Зарбалиева И.А., Алимова А. Н., Дадашова Н.Р, Рзаева Н.А. Синтез и исследование новогоповерхностно-активного вещества (ПАВ) на основе полиэтиленполиамина состеариновой кислоты. Конференция,2021,Баку,Азербайджан,стр.119-121.

4. Зарбалиева И.А., Алимова А. Н., Набиева Х. Т., Эюбова С. К. , Синтез и исследование поверхностно-активной соли полученной по реакции триэтилентетрамина со стеариновой кислотой, Конференция,2021, Баку,Азербайджан,стр.248-251.
5. Z.H. Asadov, H.T.Nabiyeva. *Synthesis and study of new surfactants based on ethylene diamine and oleic acid.* Magyar Tudomanyos Journal, № 39, 2020, p. 14-19
6. Z.H.Asadov, S.H.Zargarova, I.A.Zarbaliyeva, et al. Synthesis and study of surface-active salts based on propoxy derivatives of hexadecylamine and monocarboxylic aliphatic acids. Norwegian Journal of development of the International Science 2019,No 27, p.3-7

NORBORNEN SIRASI ASETİLEN TƏRKİBLİ BİRLƏŞMƏLƏR NEFT HASİLATI ÜÇÜN PERSPEKTİVLİ BAKTERİSİDLƏRDİR

U.Ş. Cəfərova

AMEA-nın akad. Ə. Quliyev adına Aşqarlar Kimyası İnstitutu

e-mail: ulduz.ceferova.82@mail.ru

Məlumdur ki, neftin tərkibində karbohidrogenlərlə yanaşı kükürdlü birləşmələr – mono və disulfidlər, tiofenlər və eyni zamanda politsiklik birləşmələrə də rast gəlinir. Neft və təbii qazın çıxarılması və emalında əsas problemlərdən biri hasil olunmuş məhsulların toplanması, emalı və nəqli prosesinin tamlığının qorunmasıdır. Mövcud neft hasilatı sistemlərinin bütövlüyünün pozulması əsasən metal konstruksiyalara sulfat reduksiyaedici bakteriyaların fəaliyyəti zamanı su fazasında əmələ gəlmiş hidrogen sulfidin təsiri nəticəsində baş verir. Hidrogen sulfidin mövcudluğu xüsisi mühafizə tədbirləri olmadan qısa müddət ərzində metal konstruksiyaların korroziyasını əhəmiyyətli dərəcədə sürətləndirir. Bu da öz novbəsində polad strukturların davamlılılq effektini xeyli dərəcədə azaldır. Buna görə də bu sahədə çalışan mütəxəssislər ənənəvi korroziya mühafizə üsullarını (inhibitorlar. qoruyucu örtüklər və s.) tətbiq etməklə yanaşı, qeyri ənənəvi metodlardan da (bakterisidlər hidrogen sulfid təmizləyiciləri və s.) istifadə etməyə başlamışlar.

Neft emalı sahəsində SRB-nın (sulfat reduksiyaedici bakteriyalar) inkişafını məhdudlaşdıran bakterisid reagentlərin çeşidlərini artırmaq daha məqsədə uyğun hesab edilir. Bu baxımdan norbornenil fraqmentli asetilen tərkibli birləşmələr böyük maraq kəsb edir. Bu birləşmənin strukturunda reaksiyaya girmə qabiliyyəti yüksək olan mərkəzlərin səbəbindən onların əsasında bioloji və fizioloji aktiv maddələr, korroziya inhibitorları, yağlara aşqarlar və s. əldə edilə bilər. Təqdim olunan işdə norbornen sırasının funksional əvəzedici amin tərkibli asetilen birləşmələrinin SRB-yə qarşı bakterisid təsirinin nəticələri göstərilir. Bakterisid xassəsi təyin olunan birləşmə yeni sintez olunmuşdur. Aşağıda cədvəldə sintez olunmuş birləşmənin bakterid xassəsi verilmişdir.

Cədvəl

№	Reagent (bakterisid)	Bakterisidin qatılığı mq/l	H_2S-in qatılığı mq/l	Bakterisidin aktivliyi %
1		0	223.67	-
		50	94.67	96.16
		100	81.02	57.67
		200	30.93	86.17
		500	0	100

Cədvəldən göründüyü kimi birləşmə yüksək bakterisid xassəsi göstərir. Bu da neft emalı və hasilatı üçün gələcəkdə reagent kimi istifadə olunmasına zəmin yaradır.

Ədəbiyyat

1. Андреюк Е.И., Билай В.И., Коваль Э.З., Козлова И.А. Микробная коррозия и ее возбудители. Киев: Науова думка, 1980. стр.16, 55
2. Резяпова И.Б. Сульфатвосстанавливающие бактерии при разработке нефтяных месторождений. Уфа: Гилем, 1997. стр.151
3. Əliyev C.Ə. Azərbaycanda neft sənayesinin inkişafı tarixindən. Bakı. Azərnəşr. 1960. səh.82

СИНТЕЗ И ИССЛЕДОВАНИЕ ПОВЕРХНОСТНО-АКТИВНОЙ СОЛИ, ПОЛУЧЕННОЙ ПО РЕАКЦИИ ДИЭТИЛЕНТРИАМИНА С ДОДЕКАНОВОЙ КИСЛОТОЙ

И.А.Зарбалиева, А.Н.Алимова, Х.Т.Набиева

Институт нефтехимических процессов им. акад. Ю.Г.Мамедалиева НАН Азербайджана

ilhamachem447@mail.ru, alimova.amina91@gmail.com

Миллионы тонн нефти ежегодно попадают в гидросферу, порождая одну из важнейших проблем современности-проблему защиты Мирового океана от нефтяного загрязнения. Одна из важнейших проблем экологии-загрязнение нефтью и продуктами её переработки. Это нарушает кислородный баланс, провоцирует глобальное изменение климата на планете. Вода покрывается плёнкой, которая затрудняет влаго-, тепло-, газообмен. В результате несовершенства технологий на всех этапах операций с нефтью и нефтепродуктами происходят отдельные аварии, приводящие к разливам нефти и нефтепродуктами, к загрязнению атмосферы, открытых водоёмов, почвы и подземных вод [1,3].

В данной работе синтезированы поверхностно-активные вещества на основе диэтилентриаамина с додекановой кислотой в равных молярных соотношениях. Конечный продукт диэтилентриамина с додекановой кислотой имеет твёрдое агрегатное состояние белого цвета, и это сообщает нам о завершении реакции. Продолжительность реакции длилась 22-24 часа. Схема реакции приведена ниже:

$H_2N\text{-}(CH_2)_2\text{-}NH\text{-}(CH_2)_2\text{-}NH_2 + C_{11}H_{23}COOH \rightarrow H_2N\text{-}(CH_2)_2\text{-}NH\text{-}(CH_2)_2 – H_2N \cdots HOOC\text{-}C_{11}H_{23}$

Состав и строение полученных веществ потвержден методом ИК-спектроскопией.



Рис. 1 Соль додекановой кислоты с диэтилентриамином

На ИК- спектре образца имеются следующие полосы поглощения: деформационные (1367, 1458 $см^{-1}$) и валентные (2852, 2922 $см^{-1}$) колебания С–Н связи CH_3 и CH_2 групп; валентные (1397, 1554 $см^{-1}$) колебания COO^- группы; валентные (3280, 3353 $см^{-1}$) колебания Н–N связи. Следует отметить, что контур полосы в области 2300-2800 $см^{-1}$ свидетельствует о наличие полосы аммония.

Полученная соль додекановой кислоты диэтилентриамина растворилась в CCl_4, взятый 0,01гр, образовавшийся зеленоватый цвет свойственно додекановой кислоте. При нагревании соединение хорошо растворяется в спирте, ацетоне, толуоле. Аминное число соли диэтилентриамина додекановой кислоты составляет 74.767 мгHCl/г [2]. Поверхностно-активное свойство соли додекановой кислоты диэтилентриамина (ДДЭТА) было определено с помощью тензиометра на границе воздух-вода с использованием их водных растворов при различных концентрациях. Поверхностное натяжение дистиллированной воды на границе с воздухом 72.83 ± 0,2 $мН·м^{-1}$ без реагента. Для синтеза веществ были приготовлены растворы в девяти различных концентрациях в интервале 0.01%-0.5%. На основе опыта, высокую поверхностную активность проявляют соли диэтилентриамина (σ=22,65) при концентрациях (0.3%) и это соответствует критической концентрации мицеллообразования (ККМ). На основе вычисления параметров ПАВ поверхностное давление ($\pi_{ккм}$) равняется 50.18. Полученное значение обладает нефтесобирающим и нефтедспергирющим свойством.

В результате лабораторных исследований, ПАВ-а проявляют способность собирать и
диспергировать нефтяную плёнку на поверхности трёх типов вод различной минерализации:
дистиллированная, пресная и морская вода. При нанесении неразбавленного продукта на
нефтяную поверхность наблюдается нефтесобирающая способность. Степень очистки нефти с поверхности воды ($К_д$) 91.72%.

В представленной работе данный реагент может применится как нефтесобирающий и нефтедиспергирующий реагент, с целью сохранения экологического баланса.

Литература

[1]. Asadov Z.H., Zarbaliyeva I.A., Abilova A.Z. New surfactants based on triglycerides, (ethanol) amines and orthophosphate acid, monograph, “Muallim” publishing house, ISBN 978-9952-435-34-4, 2020 p. 313
[2]. Zarbaliyeva I.A., Nabiyeva H. T,, Alimova A.N., Mammadov A.M.,Rzayeva N. A International Conference // Synthesis and analysis of salts based on oleic acid and diethyletriamine //“Science and innovations 2021:development directions and priorities” September 29, 2021 Melbourne, Australia ,p.154-161 DOI 10.34660/INF.2021.37.78.013
[3]. Ланге К. Р. Поверхностно-активные вещества. СПб: Профессия, 2005. 134-136 с.

IV BÖLMƏ

AŞQARLARIN, REAGENTLƏRİN VƏ KOMPOZİSİON MATERİALLARIN SİNTEZİ VƏ TƏTBİQİNİN EKOLOJİ ASPEKTLƏRİ

İŞLƏNMİŞ SÜRTKÜ YAĞLARININ ENERJİ MƏNBƏYİ KİMİ TƏDQİQİ

H.Ə.Cavadova, K.T.Kərimov, Y.B.Ramazanova, A.R.Yusifova, G.Q Yusifzadə
AMEA akad.Ə.Quliyev adına Aşqarlar Kimyası İnstitutu
lab_djavadova@mail.ru

İşlənmiş yağların təkrar istifadəsinin həlli müxtəlif ölkələrdə müxtəlif səviyyədədir. Hər şeydən əvvəl ölkənin bu elm sahəsindəki elmi, mütərəqqi inkişafı məsələyə yalnız iqtisadi deyil, eyni zamanda mühüm problemlərdən biri olan ekoloji cəhətdən ciddi yanaşılmadan asılıdır. Dövrü ədəbiyyat göstərir ki, inkişaf etmiş ölkələrdə artıq müəyyən qədər məsələ öz həllini tapıb. Yeni regenerasiya prosesləri, qurğular, tətbiq sahəsini tapan müxtəlif reagentlərdən istifadə etməklə işlənmiş yağların təmizlənməsi bir sıra ölkələrdə hətta dövlət proqramı səviyyəsində həyata keçirilir. [1,2].

Bütün işlənmiş yağların 77%-i qanunsuz olaraq, qeyri-leqal torpağa və su hövzələrinə tökülür. Toplanmış yağın yalnız 14-15%-i regenerasiya olunur, 26-33%-i yanacaq kimi istifadə olunur və ya yandırılır. Ədəbiyyat məlumatlarının analizi göstərir ki, işlənmiş sürtkü yağlarının təkrar istifadəsinin əsas istiqaməti onlardan soba yanacaqlarında komponent kimi, yaxud adi yanacaq şəklində yandırılmasında istifadə edilir. ABŞ-da toplanan işlənmiş mineral yağların 90%-dək miqdarı yanacaq şəklində yandırılır. Lakin bu qənaətbəxş deyil. İşlənmiş yağları yandırıldıqda onun tərkibindəki zəhərli qarışıqlar: qurğuşun, kükürd, xlor, xrom, barium, kadmium atmosferə daxil olur.

Avropada işlənmiş yağların 25%-i atılır; 75%-i yığılır, onların 25%-i regenerasiya olunur, 49%-i yanacaq kimi istifadə olunur və 1%-i məhv edilir.

Məqalədə işlənmiş motor yağlarının iki istiqamətdə tədqiqi üzrə geniş elmi və praktiki tədqiqat işləri aparılmışdır. Elektrik enerjisi istehsal edən Modul elektrik stansiyasında istifadə edilən Mysella-40 motor yağının yeni regenerasiya üsulu işlənmiş və alınan nəticələrə əsasən regenerasiya məhsulunun baza yağı kimi tətbiq sahəsi araşdırılmışdır [3]. Belə ki, işlənmiş yağın 6000 saatdan sonrakı nümunəsinin özlülük indeksi (85 -90), qələvi ədədinin – 0,44 mqKOH/q istismar prosesində detergent-dispersedici aşqarın tam istifadə olunmamış miqdarı, oksidləşməyə qarşı davamlıq xassəsi 30 saat sınaq ərzində yaranan çöküntünün miqdarə 0,5%-dən az olması, və s. mühüm göstəricilər regenerasiya məhsulunun baza yağı kimi istifadəsinə əsas verir.

Cədvəl

Regenerasiya məhsulunun keyfiyyət göstəriciləri

Kinematik özlülük, mm^2/s 40^0C 100^0C	 97,15 10,97
Özlülük indeksi	97
Qələvi ədədi, mq KOH/q	0,44
Sulfat külünün miqdarı, %	0,2
Alışma temperaturu, ^0C	267
Donma temperaturu, ^0C	mənfi 10
Çöküntü əmələ gətirməyin induksiya dövrünə əsasən davamlıq, çöküntü,% , saat	0,39 (30 saat) Davam gətirir

İşlənmiş yağın regenerasiya məhsulları əsasında avtoraktor dizelləri üçün M-10$Г_2$ və M-10$Г_2$к tipli (APİ CC SAE 30), gəmi,teplovoz, iriyüklü, öz yükünü boşaldan, sənaye dizelləri üçün M-14B_2 tipli (APİ CB SAE 40), teplovoz və ЧН 26/26, ЧН 30/38 sənaye mühərrikləri üçün M-14$Г_2$(APİ CC SAE 40), itiyerişli nəqliyyat dizelləri M-16ИХП-3 (SAE 40 API CB) tipli motor yağların tələblərini ödəyən yeni sürtkü kompozisiyaları yaradılmışdır.[4,5]

Beləliklə, regenerasiya məhsulunun Bakı baza yağları ilə kompaundu əsasında müxtəlif təyinatlı dizel mühərrikləri üçün motor yağlarının yaradılması mümkündür.

Ədəbiyyat

1.Коваленко В.П., Зыков С.А., Олейник А.Н. Регенерация отработанных моторных масел /Дракторы и сельскохозяйственные машины. 1995.-№1,- С. 13-16.

2.Регенерация отработанных масел в США // Мир нефтепродуктов. 2000. -№4. с. 23 -25.

3. В.А. Гущин, А.П. Бескровный, Н.М. Калашников. Организация очистки и рационального использования отработанных масел // Механизация и электрификация сельского хозяйства, - 1989. №12, -с. 31-32.

4. Azərbaycan Patenti İ 2021 0108. Özüboşaldan maşının mühərriki üçün motor yağı. H.Ə.Cavadova, K.T.Kərimov, A.R.Yusifova, T.İ.Şamilzadə, Hüseynova A.Ə., Z.K.Məhərrəmova, G.Q.Yusifzadə.

5. Azərbaycan Patenti İ 2021 0068. Sürtkü kompozisiyası. H.Ə.Cavadova, E.M.Cavadova, T.İ.Şamilzadə, Y.B.Ramazanova, G.Q.Yusifzadə, A.R.Yusifova, Hüseynova A.Ə., Dadaşova T.A.

İŞLƏNMİŞ YARIMSİNTETİK VƏ SİNTETİK YAĞIN REGENERASİYASINA TEMPERATURUN TƏSİRİ

K.T. Əsgərova, Ş.B. Abbasova, E.Y.Əliyev

AMEA-nın akad. Ə. Quliyev adına Aşqarlar Kimyası İnstitutu

Kama.af-13@mail.ru

İşlənmiş sintetik və yarımsintetik aviasiya yağlarının yenidən bərpası sahəsində elmi tədqiqatlar aparılmış və tədqiqatların gedişi prosesində adsorbentin yağla təmasda olduğu müddət ərzində temperaturun işlənmiş yağın regenerasiyasına təsiri öyrənilmişdir.

800 q “QOST ROSSRHX 06 B00846-2010” (A) və ya “Turbonikoyl-321 QOST-2007” (B) tərkibli işlənmiş yarımsintetik yağ 80^0C-yə qədər qızdırılır və reaktora 160^0 C temperaturda 20% qurudulmuş bentonit verilir. Reaktor vakuum xəttinə qoşulur. Vakuum 10 mm c/st.-dan az olmamalıdır. Fasiləsiz qarışdırılmaqla qarışıq 120-130^0 C-yə qədər soyudulur, sistem vakuumdan azad edilir, alınmış məhsul qaynar halda süzülür və sarı rəngdə yağ alınır. Tədqiqatlar nəticəsində əldə edilmiş göstəricilər- (A) və (B) yağlarının çıxımı, yüngül fraksiya itkisi, kinematik özlülük və turşu ədədi kimi göstəriciləri cədvəldə verilmişdir.

Cədvəl

20% bentonit iştirakında təmizlənmiş yağ çıxımının temperaturdan asılılığı

Sıra №	Yağların adları və markaları	Bentonitlə kontakt temperaturu,oC	Yağın çıxımı, %	Yüngül fraksiya,%	İtki, %	Kinematik özlülük, $\nu_{50=sSt}$
a)	Baza yağı – DÜST POCC-RHX06 B00846-2010					9-10
	İşlənmiş	-	-	-	-	9.6
		150	90	0.2	9.8	
		160	86	1.0	13	9.8
		190	82.5	3.1	14.4	10.1
		220	82	8.1	9.9	11.3
		240	80.5	12.2	7.3	11.5
b)	Baza yağı Turbonikoil-321 DÜST-2007 M-8 yağına ekvivalent					8.65
	İşlənmiş	-	-	-	-	9.9
		150	94	1.1	4.9	-
		160	87	2.1	10.9	9.9
		190	84	5.9	10.1	10.5
		220	82	8.5	9.5	11.6
		240	75	12.5	12.5	11.9

Cədvəldən göründüyü kimi adsorbsiya prosesində temperatur artdıqca təmiz yağ çıxımı azalır, yüngül fraksiya çıxımı isə artır. Bu asılılıq qrafik şəklində verildikdə müəyyən qanunauyğunluq asan görünür.



Şəkil. 20% bentonit iştirakında təmizlənmiş yağ çıxımının temperaturdan asılılıq əyrisi

Şəkildən göründüyü kimi adsorbentin 20% miqdarında optimal kontakt temperaturu 220°C-dir. Turbonikoil-321(b)işlənmiş yağının 150°C cədvəl və şəkildən göründüyü kimi çıxımı 94%-dir. Çıxım böyük olduğuna baxmayaraq yağı kifayət qədər təmizləmir. Şəkildən göründüyü kimi, təmizlənmiş Turbonikoil-321 yağının çıxımı temperatur 190°C-yə qədər artdıqca sürətlə azalır, sonra isə tarazlaşma gedir və 220°C-də birinci yağ (a) kimi çıxım 82% olur.

Bu proses sintetik yağlarda da təkrarlanır. Belə ki,temperaturun yüngül fraksiyaların çıxımına təsirinin eksperimental tədqiqi göstərmişdir ki, temperaturun 200^0 C- yə qədər yüksəlməsi ilə yüngül fraksiyaların çıxımı da uyğun olaraq artır. Bu temperaturda yüngül

fraksiyanın çıxımı “Mobil Jet-2 Mill PRF-23699 STD” və «Turbonikoil-600» sintetik yağları üçün eynidir və məhsullarda oksidləşmə və parçalanma proseslərinin başa çatmasından xəbər verir.Adsorbsiya temperaturunun sonrakı yüksəlişi yüngül fraksiyanın çıxımının azalmasına gətirib çıxarır.

Təmizlənmə temperaturunun 150^0C-dən 180^0C-yə qədər yüksəldilməsi nəticəsində təmizlənmiş yağın çıxımının 92%-dən 87.5%-ə qədər enməsi, kinematik özlülüyün yüksəlməsi və turşu ədədinin aşağı düşməsi prosesləri baş verir.

Beləliklə, adsorbentin miqdarı 20% saxlanılmaqla işlənmiş təyyarə mühərrik yağlarının təmizlənməsinə kontakt temperaturun təsirinin tədqiqi göstərir ki, regenerasiya prosesi üçün optimal temperatur 190-220°C dir.

ADSORBENTİN MİQDARININ İŞLƏNMİŞ YARIMSİNTETİK AVİASİYA YAĞLARININ REGENERASİYASI PROSESİNƏ TƏSİRİ

K.T Əsgərova, Ş.B. Abbasova, V.H.Məmmədov
AMEA-nın akademik Ə. Quliyev adına Aşqarlar Kimyası İnstitutu
Kama.af-13@mail.ru

Mövcud üsullarda yağların- xüsusən də mineral yağların təmizlənməsi bir neçə mərhələdə-süzmə (mexaniki qarışıqlardan təmizlənmə), qurudulma, yüngül fraksiyanın qovulması və yağın vakuumda distilyasiyası-qovulması ilə həyata keçirilir. Lakin yarımsintetik yağların bu üsullarla regenerasiyası mümkün deyildir.Ona görə də bu sahədə tədqiqatlar aparılmış və müəyyən nəticələr əldə edilmişdir.

Fraksiyanın çıxımı uyğun olaraq 85% və 5% təşkil etmişdir. Təmizlənmiş sintetik yağın özlülüyü baza yağından fərqli Son illər işlənmiş mineral yağların regenerasiyası məqsədilə işlənmiş mineral yağ natrium hidroksid qələvisi ilə qarışdırılaraq üzərinə kanifolun izopropil spirtində 10%-li məhlulu əlavə edilir. Alınan qarışıq yüngül həlledicilərin və izopropil spirtinin buxarlanması üçün 105-110^0C temperatura qədər qızdırılır. Qarışıq soyudulur və bu zaman yağlarda koaqulyasiya prosesləri hesabına “köhnəlmiş” hissəciklərin və işlənmiş motor yağlarında(İMY) olan mexaniki qarışıqların iriləşməsi baş verir və onlar da sentrifuqa aparatında ayrılır.

Yarımsintetik yağların təmizlənməsi prosesi üçün ədəbiyyatda məlum metodları tətbiq etmək olmur çünki bu metodlardan istifadə etdikdə pentoeritrit efir yağı qismən hidrolizə uğrayır, həmçinin kanifol və qələvi itkisi baş verir. Bundan başqa bu üsulun tətbiqi, mühərrik işləyərkən əmələ gəlmiş oksidləşmə məhsulları, yüngül fraksiyalar, turşu və aşqarların işlənmiş yağın tərkibindən tam olaraq ayrılmasına imkan vermir, sintetik birləşmələr ucbatından vakuum altında, işlənmiş yağların təkibindəki yüngül fraksiyaların qaynama temperaturları 250^0 C-dən yuxarı olduğundan onlar, 110^0C-də qovula bilmir və götürülmüş yağın tərkibində qalır.

Ədəbiyyat materiallarında işlənmiş yarımsintetik aviasiya yağlarının təmizlənməsinin digər üsulları barədə məlumatlar demək olar ki, yox səviyyəsindədir.

İşlənmiş yarımsintetik aviasiya yağlarının regenerasiyasını həyat keçirmək üçün onun tərkibindəki oksidləşmə məhsullarının, aşqarların və doymamış birləşmələrin tam çıxarılaraq təmizlənməsi həyata keçirilir. Adsorbent qismində yerli və ucüz xammal olan Azərbaycan ərazisində çıxarılan bentonitdən istifadə olunmuşdur. Əsas məqsəd sintetik yağların tərkibi və quruluşu dəyişilmədən təmizlənməsindən ibarətdir. Sintetik aviasiya yağı 70% və bentonit 30% miqdarında götürülmüşdür. Təmizlənmiş yağın və yüngül fraksiyanın çıxımı nisbətən aşağı olur. Alınmış yağın turşu ədədi işlənmiş baza yağının turşu ədədindən aşağıdır. Lakin yağın rənginin tünd olması bu üsulla təmizlənmənin kifayət qədər yaxşı səviyyədə olmamasını göstərir

İşlənmiş sintetik aviasiya yağlarının təmizlənməsi üçün müxtəlif nisbətlərdə-1:1, 1:4 nisbətlərində hazırlanmış silikogel və bentonit adsorbentlərindən ibarət qarışıqdan istifadə

olunmuşdur. Çoxsaylı eksperimentlərin gedişini müşahidə etməklə elə bir müfəssəl nəticəyə gəlmək olar ki, işlənmiş sintetik pentaeritrit aviasiya yağlarının optimal təmizlənmə şəraiti tərkibi 4:1 nisbətində silikogel:bentonitdən ibarət qarışığın 25% miqdarında tətbiqi ilə 200^0 C temperatur rejimində həyata keçirilən şərait optimal şərait hesab olunur.

PESTİSİDLƏRDƏN İSTİFADƏNİN EKOLOJİ PROBLEMLƏRİNİN HƏLLİNDƏ MİKROORQANİZMLƏRİN ROLU

K.R.Qəhrəmanova , P.Ş.Məmmədova, T.M.İbrahimova, A.E.Alməmmədova, Z.Q.Soltanova
AMEA akad. Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutu
biopearl@mail.ru

Ətraf mühitin qorunmasının ən vacib məsələlərindən biri torpaqda toplanan pestisid qalıqlarının parçalanmasıdır. Pestisidlər bitki zərərvericiləri və xəstəliklərinə qarşı mübarizə aparmaq üçün istifadə edilən toksik kimyəvi maddələrdir. Hər il zərərvericilər tərərfindən dünya məhsulun 30% itkiyə məruz qalır.

Dünyada 180 pestisid növündən və bir neçə min preparat formasından istifadə edilir. Pestisidlərdən istifadənin bir çox problemləri onların ksenobiotik, yəni təbiət üçün yad kimyəvi birləşmələr olmalarından və onlardan düzgün istifadə etməməkdən irəli gəlir. Belə ki, pestisidlərdən istifadənin norma və qanunlarına riayət etmədikdə onların torpaqda nəzərəçarpacaq dərəcədə toplanması müşahidə olunur.

Pestisidlər tək zərərericilərə təsir etmir, təbiətə də ciddi təsir göstərir. Adətən, istifadə olunan pestisidlərin yalnız 1%-dən istənilən məqsəd əldə etmək olur, qalan 99%-i ətraf mühitə düşərək torpağı, havanı çirkləndirir, biotanı zəhərləyərək çox vaxt gözlənilməz nəticələr verir, zərərvericilərlə yanaşı faydalı torpaq orqanizmlərinin də məhvinə səbəb olur. Ətraf mühitə düşən pestisid bioakkumulyasiya prosesinə qoşulur, bu zaman pestisid qida zənciri ilə hərəkət etdikcə onun konsentrasiyası dəfələrlə (yüz min dəfəyə qədər) arta bilər.

Kimyəvi pestisidlərin tətbiqi ilə ətraf mühitin çirklənmə intensivliyinin kəskin artması və kənd təsərrüfatı məhsuldarlığının keyfiyyətinin aşağı düşməsi bir çox dünya ölkələrində bitkilərin mühafizəsi üçün bioloji metodların işlənib hazırlanması və tətbiqinin vacibliyini ortaya qoydu. Eyni zamanda torpaqda pestisid qalıqlarının parçalanması da böyük narahatlıq doğuran məsələlərdəndir. Pestisidlə çirklənmiş torpaqların bioreabilitasiyası hazırda ekoloji və iqtisadi cəhətdən ən əlverişli üsul hesab edilir. Belə ki, mikroorqanizmlər biosfer üçün yad olan ksenobiotik maddələri daha effektiv parçalama qabiliyyətinə malikdir.

Işin məqsədi pestisidlə çirklənmiş torpaqların mikrobioloji analizi, eyni zamanda mövcud şəraitə adaptasiya olunmuş mikroorqanizm-detoksikatorların köməyilə torpağın əsas funkisyalarının bərpa olunması, məhsuldarlığın artırılmasıdır.

Tədqiqat obyekti olaraq, 4,4-dixlordifeniltrixloretan (4,4-DDT) pestisidinin basdırıldığı (saxlanıldığı) ərazidən 10 və 20 sm aralıqda olan və meyvə bağlarından (Xaçmaz, Mingəçevir rayonları) götürülmüş torpaq nümunələri istifadə edilmişdir.

Tədqiqatlar zamanı 4,4-DDT pestisidinin mikroorqanizmlərin (bakteriya və kif göbələkləri) miqdarına, eyni zamanda çirklənmənin dərəcəsinin mikrobiosenoza təsiri öyrənilmişdir.

Mikrobioloji analizin nəticələri onu göstərir ki, pestisidlə daha çox çirklənmiş torpaqların mikroflora tərkibi nəzərəşarpacaq dərəcədə aşağıdır. Belə ki, pestisid basdırılmış yerlərdən götürülən torpaq nümunələrində mikroorqanimzlərin sayı demək olar ki yox dərəcəsindədir, həmin sahədən 10-20 sm uzaqlıqdan götürülən nümunələrdə isə bakteriyaların miqdarı uyğun olaraq $19 \cdot 10^3$ və $29 \cdot 10^3$ KƏV/q təşkil edir. Xaçmaz ($91 \cdot 10^5$ KƏV/q) və Mingəçevir ($13 \cdot 10^6$ KƏV/q) rayonları meyvə bağları ərazisindən götürülmüş nümunələrdə bakteriyaların sayı isə nisbətən çoxdur. Belə nəticə pestisidin yüksək

konsentrasiyasının mikroorqanizmlərin populyasiyasına mənfi təsirini göstərir. Bütün nümunələrdə kif və maya göbələklərinin sayı 3-5 koloniyanı keçmir, ola bilsin pestisidlər torpaq göbələklərinin inkişafına mane olur.

Növbəti mərhələdə torpaqların bərpası üçün mikroorqanizm-detoksikator kulturalarının seçilməsi üçün xüsusi M9 mühitində aborigen mikroorqanizmlər yetişdirilmiş, biokütlə toplanmış və toksikantların olduğu nümunələrə əlavə edilmişdir. Bu proses torpağın detoksikasiya potensialını artırır. Nəticədə, torpağın yalnız ksenobiotiklərdən təmizlənməsi deyil, həm də onun məhsuldarlığının artması, torpağın əsas funksiyalarının bərpa olunması baş verir.

ƏDƏBİYYAT

1. О.Ю.Ксенофонтова, С.Э.Третьякова, Е.И.Тихомирова, Е.В.Васнецова/ Разработка технологии использования биопрепарата для ремедиации почв, загрязненных пестицидом прометрин, в лабораторных и полевых условиях/ Известия Самарского научного центра Российской академии наук, том 18, №2(3), 2016, с.718-721
2. П.Ш.Мамедова, К.Р.Кахраманова, Э.Р.Бабаев, А.С.Исмаиллы / Оценка численности микроорганизмов в образцах почв, загрязненных пестицидами/«Химические реактивы, реагенты и процессы малотоннажной химии» Тезисы докладов XXXI Международной научно-технической конференции «Реактив-2018», 02-04 октября 2018, Минск, стр.73-74

POLİMER TULLANTILARI VƏ ƏTRAF MÜHİT

V.C. Cəfərov, S.M.Xəlilova, G.H.Musayeva , S.Ə.Salahova, G.C.İsmayılova, N.N.Kərimova
AMEA-nın Polimer Miaterialları İnstitutu
valeh_ani @mail.ru

Ətraf mühitin ifrat çirklənməsi qlobal ekoloji problemin əmələ gəlməsinə, insanların normal həyat tərzinin pozulmasına səbəb olması bəşəriyyətin çiddi ekoloji problemlərlə üz-üzə qalması, planetin ekoloji tarazlığını itirliməsi bəşəriyyət üçün təhlükəlidir. Polimer materiallarının və plastik kütlələrin tullantıları təbiətdə uzun müddət qalmaqla: çürümürlər, parçalanmırlar və nəticədə ətraf mühiti çirkləndirməklə insan sağlamlığına ciddi ziyan vurulur. Bununla yanaşı təbii hadisələr: zəlzələlər, subasmalar, torpaq sürüşmələri, meşə yanğınları və müxtəlif antropogen amillər ekoloji tarazlığın gərginləşməsində ciddi təsir mənbəyi sayılır. Ekoloji mühitin çirklənməsinin əsas səbəblərindən: istilik enerjisi, avtonəqliyyat, qara və əlvan metallurgiya sənayesi, tikinti materialları sənayesi, neft emalı sənayesi və kimya sənayesidir. Kimya sənayesi sahəsində polimer kimyası və polimer kompozisiya materiallarının yaradılmasının emal prosesində əmələ gələn polimer və polimer kompozisiya materialları tullantıllarının da əmələ gəlməsi ilə çirkləndirilməsi qaçılmazdır. Məhz bu baxımdan ətrafa yayılan polimer və polimer kompozisiya materialları tullantılarının utilləşdirilməsi sahəsində bir sıra üsullar məlumdur. Onlardan:

- Termiki parcalanma
- Termiki üsulla zərərsizləşdirmə
- Basdırma
- Təkrar emal üsulu və s.

Qeyd edilən üsulların müsbət və mənfi cəhətləri mövcuddur.
Qəbul edilən səmərəli üsul təkrar emal üsulu sayılır.

İstifadə olunmuş polimer materiallarından, plastik kütlə tullantılarından və yerli təbii mineral süxurların atqılarından istifadə edərək yararlı məmulatların alınması məqsədyönlü sayılır. Təbii süxurların: alunit (mədi), seolit, azərit, bentonit, kaolin, vezuvian, vulkan külü, α- kvars albit və s. atqılarından doldurucu kimi, istifadədə olunmuş polimer kompozisiya materiallarından mətris kimi istifadə edərək müxtəlif küt. % nisbətlərdə kompozisiyalar hazırlanmış və onların fiziki-mexaniki göstəriciləri təyin olunmuşdur.
Nəticədə ilkin xammallarla müqayisədə istismar sahələrinə yararlı məmulatların alınmasına nail olunması mümkün olur.

Qeyd edilən elmi tədqiqat istiqamətində AMEA Polimer Materialları İnstitunun «Polimer Materiallarının Təkrar Emalı və Ekologiyası» laboratoriyası uzun illərdir polioliefinlər və onların tullantıları ilə yerli mineral təbii və sənaye mənşəli ehtiyatlar əsasında müxtəlif çeşiddə keyfiyyətli, istismar xassəllərinə malik polimer kompozisiya materiallarının (PKM) alınması və onların sənayenin, texnikanın müfaviq sahələrində istifadə imkanlarının araşdırılması mümkünlüyü və ekoloji problemlərinin həllinə müsbət təsirinə dair tədqiqat işləri davam etdirilir.

ОПРЕДЕЛЕНИЕ НИКЕЛЯ(II) В СТОЧНЫХ ВОДАХ

А.З.Залов, З.Г. Аскерова
Азербайджанский государственный педагогический университет
Zalov1966@mail.ru

Настоящая работа посвящена спектрофотометрическому изучению взаимодействия никеля с азомеркаптофенолом (**АМФ, H_2L**) **{**1-(2-пиридилазо)-2- гидрокси -4-меркаптофенол **(ПГМФ)**, 1-(5-хлор-2-пиридилазо)-2- гидрокси -4-меркаптофенол **(ХПГМФ)**, 1-(5-бром-2-пиридилазо)-2-гидрокси -4-меркаптофенол **(БПГМФ)**, 1-(5-иод-2-пиридилазо)-2- гидрокси -4-меркаптофенол **(ИПГМФ)}** в присутствии аминофенолов (**АФ**): 2-(N,N-диметиламинометил)-4-метилфенол (**$АФ_1$**), 2-(N,N-диметиламинометил)-4-хлорфенол (**$АФ_2$**).

Методика синтеза азомеркаптофенола. К раствору 0.01 моль *м*-тиофенола в 10 мл 5%-го водного раствора NaOH при перемешивании и 5-10ºС по каплям добавляют раствор 0.01 моля сульфата или фосфата диазосоединения на основе придина в 10 мл воды. Реакционную массу перемешивают при 5-10ºС 30 мин, дале добавляют уксусную кислоту до pH 7-8. Целевые продукты выделяют методом перекристаллизации. Выход продукта: 52%.



где X = H, Cl, Br, J

Синтезированные соединения (ПГМФ, ХПГМФ) охарактеризованы физико-химическими методами: ИК- и ЯМР-спектроскопия.

ПГМФ-ИК (KBr, $см^{-1}$): – 3460 ν (OH), 2570 ν (SH), 1290 и1170 ν(C-N), 1395 ν (N=N), 1250 δ(C-O).

H ЯМР (300,18 МГц, C_6D_6): δ 14 (s, 1H– OH), δ 2.560 (s, 1H – SH), δ 6.304 (s,1H Ar–H), δ 6.560 (s,1H Ar–H), δ 7.616 (s,1H Ar–H), δ 7.436 (s,1H Pr–H), δ 7.812 (s,1H Pr–H), δ 7.989 (s,1H Pr–H), δ 8.607 (s,1H Pr–H).

ХПГМФ -ИК (KBr, $см^{-1}$) – 3460 ν (OH), 2573 ν (SH), 1294 и1171 ν(C-N), 1395 ν (N=N), 1250 δ(C-O).

H ЯМР (300,18 МГц, C_6D6): δ 14 (s, 1H– OH), δ 2.560 (s, 1H – SH), δ 6.304 (s,1H Ar–H), δ 6.560 (s,1H Ar–H), δ 7.616 (s,1H Ar–H), δ 7.812 (s,1H Pr–H), δ 7.993 (s,1H Pr–

H), δ 8.621 (s,1H Pr–H).

АМФ – кристаллическое вещество жельто-зеленого цвета, плохо растворимое в воде, в кислотах, частично растворимое в щелочах, ацетоне, хорошо растворимое в хлороформе. В зависимости от кислотности среды АМФ может существовать в виде трех форм: H_2R, HR^-, HR^{2-}. Первый протон сулфгидрильной группы отщепляется при pH>3; второй протон оксигруппы – при pH>6.

